

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Zəngəzur tarixi, əzəli yurdumuzdur



6

# SƏS

№ 198 (6881)

28 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan-BƏƏ:
## tərəfdaşlığın və dostluğun nümunəsi




2

# Rusiya, Çin və İran ABŞ-ın ”şər oxu”nda

## ABŞ Moskva və Pekini HƏMAS-a rəğbət bəsləməkdə ittiham edir



4

## Verilən vəd, yetişən zaman



8

## Sənət dünyamızın əvəzsiz rejissoru Mehdi Məmmədov - 105



10

## Parisin İrəvana "bacılıq" sindromu: Cənubi Qafqazda "Afrika siyasəti"?



14

## Hazır qidalar ölümü tezləşdirir



15

## DİQQƏT: Dörd günlük iş rejiminə keçilir?



16

# Azərbaycan-BƏƏ:

## tərəfdaşlığın və dostluğun nümunəsi

Müstəqil dövlət kimi Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Ölkələr arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. Son illərdə ölkəmiz etibarlı tərəfdaşa çevrilərək, beynəlxalq aləmdə nüfuzu yüksəlib. Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət nəticəsində Avropa ölkələri, Türk dünyası ilə yanaşı, ərəb dövlətləri ilə münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə məlum işgüzar səfəri bu əlaqələrin müasir dövrümüzdə yeni inkişaf mərhələsində olduğunun təzahürü idi. Ötən tarixi dövrə nəzər salsaq görərik ki, Azərbaycanın ərəb dünyası ilə tarixi-mədəni bağlılığı yaradan sənədlər mövcuddur. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında diplomatik əlaqələr yaradılıb. İki ölkə arasında səfirlik səviyyəsində rəsmi münasibətlər qurulub. Belə ki, Azərbaycanın 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Səfirliyi təsis edilib. Həmin səfirlik 2001-ci il 16 iyun tarixindən etibarən BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində fəaliyyət göstərir. Bundan başqa 14 mart 2012-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dubay şəhərində Baş Konsulluq təsis edilib. 2005-ci ildə Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanması, 2007-ci ildə




malikdir.Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirir. Bu əlaqələrin daha da genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. "Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq... Mən Azərbaycana etibar edən, bərpaolunan enerjiyə böyük həcmdə investisiya yatırmağı qərar verən və Azərbaycanın yaşıl gündəliklə bağlı hədəflərə çatmasına imkan yaradacaq şirkət olan "Masdar"a xüsusi minnətdarlığımı bildirmək istərdim. Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir" - deyən Prezident bildirib ki, biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq və bu, regionun enerji inkişafında tam bir inqilab olacaq, çünki Azərbaycan dünyada ilk dəfə XIX əsrin ortalarında neftin istehsal olunduğu ölkədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlərin imzalanması əlaqələrin davamlığına əsaslanır. Belə ki, "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi", "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi" və "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi" imzalanıbdır.








Azərbaycan Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfəri və s. bu ikitərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verir. Mövcud əlaqələr mövcud münasibətlərin davamlılığını, strateji əhəmiyyət kəsb etdiyini göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətinin qəbul etməsi görülən işlərin və əlaqələrin davamlığına söykənir.Qonaqlar Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak ediblər. Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasiminin keçirilməsini tarixi hadisə kimi qiymətləndirən Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin bir çox digər sahələri də əhatə etdiyini vurğulayıb. Prezident İlham Əliyev bugünkü görüşün əməkdaşlığımızın hazırkı vəziyyətinin və perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirərək gündəlikdə duran birgə layihələrin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmini qeyd edib.

### XƏZƏR REGİONUNDA VƏ MDB MƏKANINDA ƏN BÖYÜK GÜNƏŞ ELEKTRİK STANSİYASI

Vurğulayaq ki, 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub. Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bunu əlamətdar nailiyyət kimi dəyərləndirib. "Mən Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə, həmçinin yaşıl enerjiyə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə "Masdar"ı, onun rəhbərliyini təbrik etmək istərdim. Bu gün qonaqlarımız arasında Birləşmiş Ərəb Əmirlikləri hökumətinin dörd nazirini, həmçinin qardaş ölkədən böyük nümayəndə heyətini görməkdən qürur duyuruq. Bu, tərəfdaşlığımızın və dostluğumuzun yaxşı nümunəsidir, eləcə də hər iki ölkənin bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirir. Birincisi, ona görə ki, artıq göstərildiyi kimi, bu, regionda ən böyük günəş elektrik stansiyasıdır və ikincisi, ona görə ki, artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır", - deyə Prezident bildirib. Bildiyimiz kimi, cari ilin yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında dünyanın dayanıqlı inkişafının sürətləndirilməsini hədəfləyən beynəlxalq platforma olan Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimi keçirildi və Azərbaycan Prezidenti Cənab mərasimdə çıxış etdi. Qeyd edək ki, Dayanıqlılıq Həftəsi bu məqsədə çatmaq üçün öz proqramını üç prinsip - qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya üzrə həyata keçirir. 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi planetimizin gələcəyində payı olan dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, sərmayəçiləri, iş adamlarını və gəncləri aktual məsələlərin müzakirəsi üçün bir araya gətirir. Əlbəttə ki, Azərbaycanın bu mötəbər beynəlxalq tədbirə dəvət olunması dövlət başçısının rəhbərliyi ilə sürətlə inkişaf edərək mühüm beynəlxalq layihələrin müəllifinə və təşəbbüskarına çevrilən ölkəmizin dünya miqyasında artan nüfuzunun göstəricisidir. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində bu sahədə imkanlarını daha da şaxələndirir və elektrik enerjisi, əsasən, yaşıl enerjinin önəmli təchizatçısına çevrilməyi planlaşdırır. Cənab İlham Əliyev çıxışında Azərbaycanın xarici investisiyalar üçün çox açıq ölkə olduğunu bildirib: "Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür. Hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir".

### "BUGÜNKÜ LAYİHƏ GƏLƏCƏKDƏ HƏYATA KEÇİRİLƏCƏK ÇOXSAYLI LAYİHƏLƏRİN BİRİNCİSİDİR"

Müasir dövrümüzdə dünyaya açıq olan Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, eləcə də xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Azərbaycan Cənub Qaz Dəhlizi meqa enerji layihəsini öz tərəfdaşları ilə birgə başa çatdırıb. Bu layihə Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub ki, həmin boru kəmərinin uzunluğu isə 3500 kilometrə

İki ölkə arasında münasibətlər bir çox sahədə stratrji əhəmiyyət daşıyır. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. "Masdar" ilə aparılan əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir.

Son illər Azərbaycanla BƏƏ arasında hərtərəfli əlaqələrin genişlənməsi, xüsusilə də nəhəng enerji layihələrinin reallaşdırılması münasibətləri yeni mərhələyə çıxarıb. Bu əlaqələr münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasına öz töhfəsini verir. "Masdar" şirkəti tərəfindən hazırlanmış, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş xatirə medalı Prezident İlham Əliyevə təqdim olunması dövlətlərarası münasibətin dostluğa söykəndiyini bir daha göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

Təhlil

# “Qisas” və ”Qətiyyətli cavab” əməliyyatları Ermənistana layiq olduğu yeri göstərdi!

## PREZİDENT İLHAM ƏLİYEV: "Heç kim bizimlə diktə və ultimatum dili ilə danışa bilməz"

***2020-ci il sentyabrın 27-də başlanan 44 günlük İkinci Qarabağ müharibəsində dünya hərb tarixinə yeni səhifə yazan yenilməz Azərbaycan Ordusu - 2023-cü il sentyabrın 20-də növbəti qələbəyə imza atdı. Belə ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının ”Dəmir Yumruq” siyasəti ilə Güclü Ordumuzun əsgər və zabitləri Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirdiyi daha bir böyük missiyanı uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Qısa müddətdə - bir günə təmin etdiyi qələbə yenilməz Ordumuzun malik olduğu imkanların olduğunu və Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı bütün təxribatların qarşısı qətiyyətlə alınır və alınacağının sübutu idi.***

### NƏ VAXT, NƏYİ, NECƏ ETMƏK LAZIMDIR - BUNU BİZ BİLİRİK

Sentyabrın 19-da Ermənistan silahlı birləşmələrinin törətdikləri terror aktı Azərbaycanı lokal antiterror tədbirlərinə başlamasına rəvac verdi. Dövlət başçısı İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində antiterror tədbirlərini nə zamana dayandıracağımızla bağlı irəli sürülən şərtlərdən geniş bəhs etdi. Ermənistan ordusunun ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, ərazimizdən tamamilə çıxarılmalı, eyni zamanda, bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o





təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə sona qədər gedəcəyik.

Qarşı tərəfin qısa zamanda, bir gün ərzində irəli sürülən şərtlərdə razılaşması Azərbaycanın ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasətinin nəticəsidir. Hətta necə aydır Azərbaycan nümayəndələri ilə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri sentyabrın 21-də Yevlaxda görüşə hazvr olduqlarını bildirdilər və görüşdülər. Bu görüşlər artıq silsilə xarater daşıyır. Dövət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağda yaşayan erməni əhalisi nəhayət rahat nəfəs ala bilər. Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan dövləti və xalqı haqqında olmazın yalanları uydurub onların beyinlərinə doldurmuşdur. Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Erməni xalqı ilə heç bir problemimiz, ədavətimiz yoxdur.

Qalib Liderimiz, Prezident İlham Əliyev müraciətində lokal antiterror tədbirlərinə başlanmasını şərtləndirən amillərə diqqəti yönəldərək bildirdi ki, bu tədbirlər nəticəsində hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edən dövlətimizin başçısı deyib: ”Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır”. Sözü imzası qədər dəyərli və keçərli olar Ali Baş Komandan, Prezident İlham Əliyev nə vaxt, nəyi, necə etmək lazımdır - bunu özü bilir. Dövlət başçımız Prezident İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində bir daha özlüyündə yaranan ”Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi” sualına cavab olaraq bildirib ki, İkinci Qarabağ müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır: ”Biz deyirdik ki, qanunsuz xunta rejimi öz əski parçasından artıq olmayan dırnaqarası bayraqlarını büküb cibinə qoyub bizim torpağımızdan çıxmalıdır. Bu, bizim suveren hüququmuzdur. Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə ”Qarabağ Ermənistandır və nöqtə” deyirdisə, indi ”Qarabağ Azərbaycandır” deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, bunu öz xoşu ilə etməyib, bunu ”Dəmir yumruq” hesabına etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər?! Hansı dövlət atributları ola bilər?! Hansı seçkilər ola bilər?!”

Dövlət başçımız sözügedən müraciətdə onu da söylədi ki, İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Ona görə bütün bu amillər bir daha onu göstərir ki, qanunsuz kriminal xunta rejimi azğınlaşıb, harınlaşıb və qudurub. Unudub ki, onlar Azərbaycan ərazisində yaşayırlar. Ona görə bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk: ”Hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda, Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək”.

Ali Baş Komandan xalqa müraciətində antiterror tədbirlərinin dayandırılması üçün Azərbaycanın şərtlərindən danışarkən deyib ki, bu gün səhər saatlarında bizə bildirildi ki, şərtlərimiz qəbul edilib. Üstəgəl, bir neçə ay ərzində bizim nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə - Yevlax şəhərində görüşməyə hazırdırlar.

Göründüyü kimi, sözü imzası qədər dəyərli, keçərli olan Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində bir daha növbəti mesajını da ünvanladı ki, nə vaxt, nəyi, necə etmək lazımdır - bunu özü bilir: ”Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi. Əfsuslar olsun ki, qarşı tərəf atəşkəsə tam əməl etməyib. Atəşkəs elan olunandan sonra da bizim mövqelərimiz atəş altına düşmüşdür. Buna baxmayaraq, prinsip etibarilə bizim şərtlərimiz tam qəbul olundu”.

### VƏ BUNU BİRDƏFƏLİK ANLAMAQ LAZIMDIR Kİ, BİZİM SÖZÜMÜZ İMZAMIZ QƏDƏR DƏYƏRLİDİR

”Bu gün səhər saatlarında bizə bildirildi ki, şərtlərimiz qəbul edilib. Üstəgəl, bir neçə ay ərzində bizim nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə - Yevlax şəhərində görüşməyə hazırdırlar”.Bu barədə Prezident İlham Əliyev xalqa müraciətində bildirib.Dövlətimizin başçısı qeyd edib: ”Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi. Əfsuslar olsun ki, qarşı tərəf atəşkəsə tam əməl etməyib. Atəşkəs elan olunandan sonra da bizim mövqelərimiz atəş altına düşmüşdür. Buna Beləliklə, tarix də sübut edirik biz haqlı mübarizə aparırıq. Çünki dövlət başçımızın dediyi kimi: ”Nəyi ediriksə, dəqiqliklə edirik. O ki qaldı, bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm... Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında!”.

Və qeyd etdiklərimizin fonunda Birləşmiş Millətlər Təşkilatının (BMT) İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türkün Qarabağda humanitar vəziyyətlə bağlı narahatlığın nə qədər səbəbsiz olduğu açıqlanır. Dövlət başçısının qeyd etdiyimiz çağırışların hər biri Volker Türkün mülki şəxslərin təhlükəsizliyinin, erməni əhalinin haqlarının qorunmasının vacibliyi ilə bğalı ifadə etdiyi narahatlığa tutarlı cavabdır.

Göründüyü kimi, dünya yenə də ikili standartlara əsaslanan siyasətindən yaxa qurtara bilmədiyini qabarıq şəkildə nümayiş etdirir. Təkcə son zamanlar BMT səviyyəsində Ermənistanın bilavasitə təkidi ilə Qarabağdakı vəziyyətlə bağlı keçirdiyi dinləmələrdə Azərbaycanın mövqeyinə dəstəyə diqqət yetirmək kifayətdir. Bunları bilərəkdən BMT rəsmisinin yenidən erməni əhalisinin hüquqlarının qorunması məsələsindən öz çirkin niyyətlərini həyata keçirmək üçün bir vasitə kimi istifadə etməyə cəhd göstərməsi təəccüb doğurmaya bilməz.

Azərbaycan Xarici İşlər Nazirliyinin BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türkün bölgədəki mövcud vəziyyət və etnik azlıqların hüquqlarının qorunması öhdəliyi barədə fikirlərinə dair şərhində bildirilir ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bağlı atdığı bütün addımlar, o cümlədən son 24 saatlıq antiterror tədbirləri beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğun şəkildə həyata keçirilib. Azərbaycan hər zaman həyata keçirdiyi tədbirlər çərçivəsində mülki əhalinin və mülki obyektlərin qorunmasına sadiq olub. Bu mühüm məqam da təəssüf hissi ilə qeyd edilir ki, indiyədək heç kim bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını qorumağa, o cümlədən onların təhlükəsizlik və ləyaqət şəraitində qayıtmaq hüquqlarını təmin etməyə dair çağırış etməyib. Azərbaycanın 44 günlük müharibədən, o cümlədən antiterror tədbirləri həyata keçirildikdən sonra itkin düşmüş şəxslərin yerini tapmaq üçün kömək göstərməsinə baxmayaraq, 4000-ə yaxın itkin düşmüş azərbaycanlıya qarşı eyni diqqət və həssaslığı müşahidə etmirik. Ümid edirik ki, ali komissarın qurbanların hüquqları baxımından günahkarların məsuliyyətə cəlb olunması və cəzalarını çəkmələri məsələsinin həllini tapması üçün şəffaf istintaq aparmaq çağırışları, Azərbaycanın 30 ilə yaxın müddətdə Xocalı soyqırımı, digər kütləvi qətliam və insanlıq əleyhinə cinayətlərdə təqsirli şəxsləri cəzalandırmaq istiqamətində çağırışlarına məhəl qoymayan beynəlxalq ictimaiyyət tərəfindən ciddi şəkildə qəbul ediləcək.

Dövlət başçımızın söylədiyi kimi: ”Bizə xor baxanlara, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, ”Dəmir yumruq” yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”.

***RƏFİQƏ KAMALQIZI***

# Rusiya, Çin və İran ABŞ-ın "şər oxu"nda

*ABŞ Moskva və Pekini HƏMAS-a rəğbət bəsləməkdə ittiham edir*



Bu gün İsrail-HƏMAS müharibəsində sülhün üfüqdə görünmə imkanları sıfırın altındadır. Çünki tələblər, arzu və istəklər, eyni zamanda kənar müdaxilələr yetərincədir. Belə bir şərtlər altında silahların susması mümkün görünmür. Region haqq-hesab meydanına çevrilib, ABŞ İranla, İran İsraillə, Fransa müsəlman dünyası ilə mübarizəyə girişib, səlibçilər itirdikləri mövqeləri yenidən qazanlaq üçün fürsətdən yararlanmaq niyyətini gizlətmir, silah tüccarları öz işindədir, dünyanın başqa bir qütbündə müharibə aparanlar Yaxın Şərqdə qarşıdurmaları bir az da körükləməklə hibrid müharibə "ustad"larının diqqətini yayındırmağa laçışırlar. Itirən, itirilən isə yerli xalq olur. Pentaqon ən ağır artilleriyasını - USS Gerald R.Ford təyyarədaşıyan gəmisinin zərbə qrupunu Aralıq dənizinin şərqinə köçürüb. Bu isə o deməkdir ki, yeni İsrail-Fələstin müharibəsi, ya da İran-ABŞ savaşı daha ağır olacaq.

İsraildə fələstinli qruplaşmalar tərəfindən girov götürülənlərin taleyi beynəlxalq diqqət mərkəzində qalmaqdadır. Xüsusilə, cümə axşamı HƏMAS hərəkatının nümayəndə heyətinin Moskvaya səfəri zamanı bu məsələ müzakirə olunub. İsrail Rusiyanın vasitəçilik cəhdlərini təqdir etməyib və HƏMAS-ın Rusiya paytaxtında qəbulunu "utancverici addım" adlandırıb. Fələstinin Həmas hərəkatının nümayəndə heyəti cümə axşamı Moskvaya gəlib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Vladimir Putin HƏMAS-la görüşməyi planlaşdırmır. "Əlaqələr Xarici İşlər Nazirliyi vasitəsilə həyata keçirilir", o əlavə edib. Rusiya Xarici İşlər Nazirliyində nümayəndə heyətini Rusiya Federasiyası



Prezidentinin Yaxın Şərq və Afrika ölkələri üzrə xüsusi nümayəndəsi, xarici işlər nazirinin müavini Mixail Boqdanov qəbul edib. Bu, onun HƏMAS nümayəndələri ilə bu hərəkatla İsrail arasında müharibənin başladığı 7 oktyabrdan sonra ilk görüşü deyil. Ötən həftə cənab Boqdanov Dohaya səfər edib və orada Qətər hakimiyyəti, eləcə də HƏMAS-ın siyasi rəhbərliyi ilə Yaxın Şərqdəki vəziyyəti müzakirə edib. Mövzulardan biri Fələstinli qruplaşmaların İsrail ərazisinə hücumu zamanı əsir götürdüyü girovlarla bağlı vəziyyət olub.

Cümə gününə olan məlumata görə, girovların siyahısında 229 nəfər var. İsrail hökuməti başçısının ofisinin mətbuat xidməti qeyd edib ki, söhbət 25 ölkənin vətəndaşlarından gedir. Bunlar əsasən iki vətəndaşlığı olanlardır, sadəcə olaraq əcnəbilər də var. Bu siyahıda altı rus var. Bu arada Rusiyanın İsraildəki səfiri Anatoli Viktorov Solovyev məlumat verərək bildirib ki, girovlar arasında Rusiya və İsrail vətəndaşlığı olan üç nəfərin olduğu güman edilir. Girovların azad edilməsi üçün müxtəlif yollarda işlər aparılır. İmperator Pravoslav Fələstin Cəmiyyətinin rəhbəri Sergey Stepaşin jurnalistlərə deyib ki, xarici işlər nazirinin müavini Mixail Boqdanovla danışmışıq ki, ikili vətəndaşlığı olan girovlarımızı çıxaraq. Həm də təkcə bizim deyil: Ukrayna, Qazax, İngilis, Amerika. Biz burada fərq qoymuruq.

Qeyd edək ki, Rusiya HƏMAS ilə əlaqə saxlayan və hərəkatı terrorçu kimi təsnif etməyən bir neçə qeyri-müsəlman ölkədən biridir. İsrailə hücum nəticəsində 1,4 mindən çox adam ölüb, minlərlə insan yaralanıb və bu, Moskva tərəfindən pislənilib. Amma Rusiya baş verənlərə görə İsraili günahlandırır. Yəhudi dövlətinin BMT Təhlükəsizlik Şurasının qətnamələrini pozduğu və Fələstin-İsrail münaqişəsinin həlli üçün heç bir iş görmədiyi diqqətə çatdırılıb. Moskva həmçinin Fələstin Səhiyyə Nazirliyinin məlumatına görə, İsrailin Qəzza zolağına 7 minə yaxın insanın ölümü və 19 mindən çox insanın yaralanması ilə nəticələnən zərbələrinin dərhal dayandırılmasını tələb edən ərəb ölkələri ilə həmrəylik nümayiş etdirib.

İkinci tələb İsrailin Qəzza zolağının humanitar fəlakətə səbəb olan blokadasını ləğv etməsidir. Bir gün əvvəl Rusiya və Çin ABŞ-ın BMT Təhlükəsizlik Şurasının Yaxın Şərqdəki vəziyyətlə bağlı atəşkəsə çağırmayan, humanitar pauzalardan bəhs edən qətnamə layihəsini bloklayıb. Buna görə HƏMAS həm Moskvaya, həm də Pekinə təşəkkür edib. Eyni zamanda, Rusiyanın BMT Təhlükəsizlik Şurasının qətnamə layihəsində Qəzza zolağında humanitar məqsədlər üçün atəşkəs nəzərdə tutulurdu və hər iki tərəfdən mülki insanlara qarşı zorakılıq və hərbi əməliyyatlar pislənilirdi. Lakin o da keçə bilməyib. Girovların azad edilməsi məsələsində indiyədək yalnız Qətər və Misirin vasitəçiliyi nəticə verib. Ümumilikdə dörd qadın - Amerika və İsrail vətəndaşlığı olan ana və qızı, həmçinin iki yaşlı israilli qadın azad edilib. Bundan əlavə, ərəb mediası Dohanın daha 50 vətəndaşın azad edilməsi ilə bağlı danışıqlar apardığını bildirib. Cümə axşamı günü isə xəbərlər yayılmışdı ki, İsrail atəşkəsi dayandırsa, HƏMAS bütün mülki girovları azad edə bilər. Çərşənbə axşamı hərəkatın Siyasi Bürosunun üzvü Usamə Həmdan mediaya müsahibəsində deyib ki, əgər hər iki tərəf bu sahədə irəliləyiş əldə etmək istəyirsə, Qəzza zolağına dərman və yanacaq tədarükünü təmin etmək üçün İsrailə təzyiq göstərməlidir.

Amma görünür, sövdələşmə davam edir. Cümə axşamı İranın xarici işlər naziri Hüseyn Əmir-Abdollahian Nyu-Yorkda BMT Baş Assambleyasının tribunasından elan edib: "Biz HƏMAS ilə bir sıra danışıqlar aparmışıq və bundan belə nəticə çıxır ki, hərəkat mülki məhbusları azad etməyə hazırdır, lakin dünya İsrail həbsxanalarında saxlanılan 6 min fələstinlinin azad edilməsinə dəstək verməlidir". Nazirin sözlərinə görə, HƏMAS girovları Tehrana təhvil verməyə hazırdır.

Çinin xarici işlər naziri Vanq Yinin Vaşinqtonda dövlət katibi Antoni Blinken, ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan və ola bilsin ki, Cozef Baydenin özü ilə görüşü planlaşdırılır. Bu səfər noyabrda San-Fransiskoda Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) forumunda Çin prezidenti Si Tsinpinlə Baydenin sammiti üçün bir addım ola bilər. Lakin Qəzza zolağında baş verən hadisələr Vaşinqtonu Yaxın Şərqi danışıqlarda ön plana çıxarmağa vadar edib. ABŞ İran neftinin əsas alıcısı kimi Çinin Tehrana təsir göstərməsini və onun münaqişədə iştirakının qarşısını almaq istəyir. Həm ABŞ, həm də Çin müharibənin genişlənməsini istəmir. Lakin Pekin hadisələrə müdaxilə etməkdənsə, onları kənardan müşahidə etməyə üstünlük verəcək. Üstəlik, sırf İsrailin tərəfini tutan Vaşinqtonun mövqeyi Pekin üçün qəbuledilməzdir.

Bayden administrasiyasının prioriteti dünyanın iki ən böyük iqtisadiyyatı arasında gərgin rəqabətin, eləcə də ticarət, Tayvanın statusu və Cənubi Çin dənizi kimi sahələrdə fikir ayrılıqlarının birbaşa toqquşmaya səbəb olmasının qarşısını almaqdır. Xi-nin Kaliforniya qubernatoru Gavin Newsomu qəbul edərkən verdiyi açıqlamaya əsasən, Pekin bu istəyi bölüşür: "Axı hər iki tərəfin maraqları bir-biri ilə sıx bağlıdır. Çinin ABŞ-a qarşı siyasəti qarşılıqlı hörmət, dinc yanaşı yaşama və əməkdaşlıqdır. O, bu istiqamətdə səylərini davam etdirəcək".

Wang Yi-nin ABŞ-a səfərinə hazırlıq gedən zaman Vaşinqton və Pekinin əhvalruhiyyəsi belə idi. Lakin Blinken çərşənbə axşamı BMT Təhlükəsizlik Şurasının iclasında deyib ki, o, döyüşlərin artmasının qarşısını almaq üçün Çin naziri ilə işləyəcək. Pekin Tehrana məhdudlaşdırıcı təsir göstərməlidir. Müşahidəçilərin fikrincə, Pekinin bundan istifadə edib-etmədiyi məlum deyil. "Çinlilər, əlbəttə ki, ABŞ və İran arasında birbaşa qarşıdurmanın qarşısını



almaqda maraqlıdırlar. Belə olan halda neftin qiyməti qalxacaq. Lakin çinlilər çətin ki, buna böyük resurslar ayırsınlar. Mən gözləyirəm ki, onlar İsrailin HƏMAS-la mübarizəsi bitəndə masa arxasında oturmağa üstünlük verəcəklər. Lakin mən düşünmürəm ki, onlar münaqişənin həllini sürətləndirmək üçün böyük təzyiq hiss etmirlər", - ABŞ Beynəlxalq Araşdırmalar İnstitutunun Yaxın Şərq proqramının rəhbəri Con Alterman deyib.

Ardı Səh. 5

# Rusiya, Çin və İran ABŞ-ın "şər oxu"nda

## *ABŞ Moskva və Pekini HƏMAS-a rəğbət bəsləməkdə ittiham edir*

**Əvvəli Səh. 4**

Bu qiymətləndirmə ümumiyyətlə, çinli mütəxəssislər tərəfindən paylaşılır. Pekindəki Xalq Universitetinin professoru Shi Yonghong bildirib ki, ABŞ və Çinin Yaxın Şərqlə bağlı mövqeləri arasında demək olar ki, ortaq heç nə yoxdur. Çin üçün Vaşinqtonun İrana qarşı kursu qəbuledilməzdir. Ona görə də kompromis əldə olunsa belə, minimal və demək olar ki, əhəmiyyətsiz olacaq.

Blinken, keçən həftə Yaxın Şərqə səfəri zamanı Wang Yi ilə telefonla danışsa da, həmsöhbətinin İsrailin təmkinli olması və atəşkəs çağırışını eşidib. Yaxın Şərq üzrə sazişin perspektivi həm də prezident seçkiləri ərəfəsində ABŞ-da daxili siyasi mübahisələrin intensivliyi ilə mürəkkəbləşir. Amerikadakı şərhçilər qeyd edirlər ki, Bayden Si Cinpinə hər hansı güzəşt etsə, bu, onun reytinqinə mənfi təsir göstərəcək. Respublikaçıların Senatdakı azlıq lideri Mitch McConnell, necə deyərlər, atəşə yanacaq əlavə edib. Onun sözlərinə görə, ABŞ-a qarşı Çin, Rusiya və İran simasında yeni "şər oxu" fəaliyyət göstərir. Senator həmçinin iddia edib ki, Baydenin qərarı ilə Amerika qoşunlarının Əfqanıstandan nizamsız şəkildə çıxarılması Moskvanı Ukraynada xüsusi hərbi əməliyyata başlamağa sövq edib.



Bu, ABŞ-da "şər oxu" haqqında ilk dəfə deyil, prezident Corc Buş da bu barədə danışıb. Amma sonra İraq, İran, Şimali Koreya, Kuba, Liviya və Suriyanı "şər oxu"na aid etmişdi. İndi isə həmin statusu "daşımaq" növbəsi Çin və Rusiyaya gəlib. Yenə də Vaşinqtondakı Stimson Mərkəzinin Çin proqramının direktoru Yun Sonq hesab edir ki, təkcə Yaxın Şərqdə deyil, Çin-Amerika münasibətlərinin digər problemlərində də Vanq Yinin səfərindən heç bir mühüm xəbər gözləmək olmaz. Böyük razılaşmalar əldə olunarsa, bunu məmurlar deyil, iki qüdrətin liderləri özləri elan etməli olacaqlar.

"The Financial Times"ın qeyd etdiyi kimi, Amerika və İsraildə publisistlər belə şərh edirlər ki, Rusiya kimi Çin də İsrailin verdiyi qurbanları nəzərə almır. Hətta Moskva və Pekinin HƏMAS yaraqlılarına rəğbət bəslədiyi barədə fikirlər də var. Bu, Çin-Amerika dialoqunun atmosferini çətinləşdirir. "Global Times" qəzeti isə yazır: "ABŞ-ın Çini cilovlamağa yönəlmiş siyasəti dəyişməyib. Buna görə də ABŞ Çini gözdən salmaq üçün bütün imkanlardan istifadə edir".

### Brüsseldə nə düşünürlər?

Cümə axşamı günü Brüsseldə iki günlük zirvə toplantısı üçün toplanan Aİ liderləri prioritetləri dəyişdirmək qərarına gəliblər. Rusiya Federasiyasına qarşı 12-ci sanksiyalar paketinin yekun müzakirəsi və Avropa Birliyinin qarşıdan gələn genişlənməsinin təfərrüatları əvəzinə, onlar Yaxın Şərqdəki müharibənin müzakirəsinə üstünlük veriblər. Aİ BMT Baş katibini İsraillə münaqişəsində dəstəkləyib və döyüşlər zamanı humanitar fasilənin verilməsini müdafiə edib. Artıq sammit iştirakçılarına dəvət məktubunda onun işinin tonunu Avropa İttifaqı Şurasının sədri Şarl Mişel müəyyən edib. O, elə ilk sətirlərdən belə deyib: "Yaxın Şərqdə baş verən faciəli hadisələr bizi Ukraynaya davamlı dəstəyimizdən yayındırmaq məqsədi güdür".



Mişel məktubun mətnində bir dəfə də olsun Rusiyaya qarşı yeni sanksiyalar paketindən bəhs etməyib, baxmayaraq ki, Ukrayna prezidenti Vladimir Zelenskinin sammit iştirakçılarına müraciətində məhz bu barədə danışacaqdı. Bu, təbii ki, həmin məsələnin Aİ-nin gündəliyindən çıxarıldığı anlamına gəlmir. Sadəcə texniki problem var. Aİ G7 ilə bu məsələdə razılaşdıqdan sonra Rusiya almazlarına qarşı sanksiyaları özündə əks etdirən 12-ci paketi qəbul etmək istəyir. G7 Hindistanla məsləhətləşmələr aparır: o, məhdudiyyətlərə qismən qoşulmaq niyyətindədir. Reuters agentliyi diplomatik mənbəyə istinadən məsələnin bir həftə ərzində həll olunacağını bildirib.



Mişelin məktubunda qeyd edildiyi kimi, Aİ ilk növbədə başqa bir iş görməlidir. "Biz ilk növbədə humanitar yardımın effektiv çatdırılmasını və ən əsas ehtiyaclara çıxışı necə təmin etməyi təcili şəkildə müzakirə etməliyik. İkincisi, münaqişənin təhlükəli regional eskalasiyasının qarşısını almaq üçün tərəfdaşlarımızla vahid və ardıcıl cəbhə kimi çıxış etməliyik. Üstəlik, iki dövlətli həll əsasında sülh prosesinin bərpası irəliyə doğru yeganə yoldur". Bu baxımdan hazırda Aİ üçün vacib məsələlərdən biri hərbi əməliyyatlarda humanitar pauza məsələsi ilə bağlı ümumi mövqenin işlənib hazırlanmasıdır. Bu nə olmalıdır, BMT-nin təklif etdiyi kimi, iki həftə və ya daha qısa - bəlkə də humanitar yardımın çatdırılması və paylanması üçün bir neçə saat lazımdır. Mühakimə etmək olar ki, sammitdə qədər ortaq mövqe ortaya qoyulmayıb. İspaniya Qəzza zolağına nisbətən yumşaq yanaşmanın tərəfdarıdır, açıq şəkildə qorxur ki, döyüşlərin nəticələri Avropaya yeni qaçqın axını olacaq və bu axın da Pireney yarımadasından keçəcək. Almaniya güclü şəkildə İsrail tərəfdarıdır. Bununla belə, sonuncu vəziyyət Aİ-nin BMT Təhlükəsizlik Şurasındakı qeyri-müəyyən bəyanatına görə İsrailin istefasını tələb etdiyi Quterreşi yekdilliklə dəstəkləməsinə mane olmayacaq. Ən azı Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Josep Borrell cümə axşamı bunu əmin etdi. Onun sözlərinə görə, Aİ həm Quterreş, həm də BMT əməkdaşlarını Yaxın Şərqlə bağlı hərəkətlərində "tam dəstəkləyir".

Sammitdə gözlənilməz mövzular arasında Macarıstana münasibət də diqqəti çəkib. Estoniyanın baş naziri Kaja Kallas bu yaxınlarda Pekində Vladimir Putinlə görüşən Macarıstanın baş naziri Viktor Orbanın davranışını müzakirə etməyə çağırıb. Macarıstan rəhbərliyi ilə Kreml arasında davamlı təmaslar, onun dediyi kimi, "həll etməli olduğumuz problemə" çevrilir. Buna baxmayaraq Orban Brüsselə çatan kimi əvvəlcə Putinlə görüşünə görə üzr istəmək fikrində olmadığını bildirib: "Biz Rusiya ilə bütün kommunikasiya kanallarını dəstəkləyirik, əks halda sülh şansı olmayacaq. Bu, bizim strategiyamızdır və biz bununla fəxr edirik".



Onu da xatırladaq ki, bundan əvvəl Macarıstanın xarici işlər naziri Peter Siyarto Orban-Putin münasibətlərinə Kallasın qəzəblənməsinə cavab olaraq xatırladıb ki, Estoniya baş nazirinin əri bu yaxınlarda Rusiya Federasiyasından olan bir şirkətlə müştərək iş apardığına görə məhkum edilib. Buna baxmayaraq, o, vəzifəsini tərk etmədi və bu, ikiüzlülükdür. Yeri gəlmişkən, oktyabrın 26-da Orban Brüsseldə olarkən Macarıstan Xarici İşlər Nazirliyinin rəhbəri Minskə gedib. Bu, yəqin ki, həm də rəsmi Budapeştin Ukrayna-Rusiya münaqişəsində xüsusi xəttindən əl çəkmək niyyətində olmadığını göstərən siqnaldır.

**V.VƏLİYEV**

# Zəngəzur tarixi, əzəli yurdumuzdur

Qərbi Azərbaycan İcmasının Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç ilə görüşməsinə, bu günlərdə Varşavada ATƏT-in İnsan Ölçüsü Konfransı çərçivəsində tədbir keçirməsinə, Haaqada ATƏT-in milli azlıqlar üzrə komissarlığının tədbirində iştirakına Ermənistanın verdiyi reaksiya bir daha bu dövlətin siyasətində azərbaycanlılara qarşı olan etnik nifrətin səviyyəsini göstərir. Bununla Ermənistan həm də söz azadlığına və vətəndaş cəmiyyətinin fəaliyyətinə nə qədər dözümsüz yanaşdığını nümayiş etdirib. Bu fikirlər Qərbi Azərbaycan İcmasının mövzu ilə bağlı bəyanatında yer alıb. Bəyanatda həmçinin vurğulanır ki, Ermənistan hökuməti dialoqdan qaçmaq üçün guya İcmanın ona qarşı ərazi iddiası irəli sürdüyünü iddia edir. Qərbi Azərbaycan İcması bir daha bildirir ki, onun Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə qarşı heç bir iddiası yoxdur və yeganə məqsədi azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarına dinc şəkildə qayıdışını təmin etməkdən ibarətdir.

### ”QƏRBİ AZƏRBAYCAN BİZİM TARİXİ TORPAĞIMIZDIR”

”Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı bildirmişdir. Tarixin müxtəlif dönəmlərində Azərbaycanlılar öz əzəli torpaqlarından uzaqlaşdırılmış, deportasiyaya məruz qalmışdılar. XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib. ”Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var.”- deyə dövlət başçısı bildirib.

### AZƏRBAYCANI NAXÇIVANDAN VƏ TÜRKİYƏDƏN COĞRAFİ NÖQTEYİ-NƏZƏRDƏN AYIRMAQ ÜÇÜN ATILMIŞ ADDIM



Son iki yüz il ərzində regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin ”tarixi əzəli torpaqları”nı yaratmaq siyasəti mərhələ-mərhələ həyata keçirilib. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər. Tarixdən bəllidir ki, İran və Rusiya arasında ”Gülüstan”, ”Türkmənçay”, Rusiya və Türkiyə arasında ”Andrianopol” müqaviləsi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib. Torpaqları zəbt olunan azərbaycanlılar isə süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salınıblar.

Tarixdən bizə məlumdur ki, 1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə gəlir. Vaxtilə Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil olmuş İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq ideyasını ortaya atılır. Həmin dövrdə Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyə məcbur olurlar. Ermənipərəst qüvvələrin və millətçilərin yürütdükləri məkrli siyasət nəticəsində 1923-cü ildə Azərbaycanın az sayda ermənilərin yaşadığı ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır. Bundan sonra azərbaycanlıların öz doğma ocaqlarından zorla qovulması və onlara qarşı etnik təmizləmə siyasətinin yeni mərhələsi başlanır. Nəticədə XX əsrin müxtəlif dövrlərində iki milyona yaxın soydaşımız öz tarixi torpaqlarından qovulur, etnik təmizləmə siyasətinin qurbanına çevrilərək didərgin salınırlar.

”1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi”, - deyən Cənab Prezident diqqətə çatdırıb ki, Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi:”Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan. Bununla Qərbi azərbaycanlıların faciələri bitmədi. Hamımız yaxşı bilirik ki, 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalmışdır”.




### ”170-DƏN ÇOX KƏNDDƏ ANCAQ AZƏRBAYCANLILAR YAŞAYIRDILAR”

Azərbaycanın tarixi mahalı olan Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrilir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk kəndi, 91 kürd kəndi və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon müsəlman həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunmuşdu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

Tarixi proseslərin davamı olaraq. iyirminci əsrin sonunda 1988-ci ildən başlayaraq, Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədəbaba yurdlarından qovuldular. ”1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi”, - deyən Cənab Prezident Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçilərinin, həm də onların sovet hökumətindəki havadarlarının dərhal hərəkətə keçdiklərini bildirib: ”Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək



oldu və həm Qarabağda, həm o vaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar  Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. O da azmış kimi Qarabağda da xalqımıza qarşı cinayət törədildi”.

1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - Ermənistandan növbəti deportasiyası baş verib, nəticədə 250 min azərbaycanlı qaçqın düşüb. Bu hadisəyə, o cümlədən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə Azərbaycan xalqının etirazı ona qarşı 1990-cı ilin yanvarında Sovet qoşunlarının yeridilməsinə, Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında kütləvi qırğınlara səbəb olub.

### ”ZƏNGƏZURUN AZƏRBAYCANDAN AYIRIB ERMƏNİSTANA VERİLMƏSİ BÖYÜK ƏDALƏTSİZLİK İDİ”

Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib. Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur tarixi Azərbaycan torpağıdır. Tarixi mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilib ki, Zəngəzur türklərin qədim yurd yeri olub. Zəngəzurdakı türk mənşəli toponimik adların çoxluğu da bu fikri təsdiqləyir. Xalqımıza qarşı həyata keçirilən tarixi ədalətsizlik öz qiymətini alacaq. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində ”Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana verilməsi böyük ədalətsizlik idi”, - deyə bildirmişdir. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır, - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev Zəngəzurun tarixi dövrdəki əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olduğunu qeyd etmişdir. Təbii ki, mənbələrdə göstərildiyi kimi, Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları olub. Tarixi ədalətsizliyin sağalmayan yara olduğunu qeyd edən Cənab İlham Əliyev ”vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq”, - deyə əminliyini ifadə etmişdir. Artıq həmin zaman yetişib. ”Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur”, - deyən Azərbaycan Prezidenti bildirib ki, əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var: ”Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur”.

Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində indi Ermənis-



tan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etmək haqqıdır. Əgər bu ərazinin adı Zəngəzurdusa və Azərbaycan ərazisinə daxildirsə, ölkəmizin ayrılmaz hissəsidirsə, bunu necə saxtalaşdırmaq olar. Bu qeyri-mümkündür!

Cənab Prezident bildirib ki, indi bütün kommunikasiyalar açılandan sonra, əlbəttə, biz qayıdacağıq və Azərbaycan əhalisi öz dədə-baba torpaqlarına qayıdacaq: ”Üçtərəfli 10 noyabr Bəyanatında göstərilir: Bütün qaçqınlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə”.

Əlbəttə ki, Azərbaycan Prezidentinin qüdrəti və apardığı uğurlu xarici və daxili siyasət sayəsində Qərbi azərbaycanlıların da tarixi torpaqlarına qayıdacağı gün uzaqda deyil. Ölkəmizin iqtisadi və sosial inkişafı, beynəlxalq nüfuzunun artması, xalqımızın rifahının yüksəlməsinə və daha gözəl gələcəyinin təmin edilməsinə xidmət edən dövlət siyasəti daha böyük uğurları bizlərə yaşadacaqdır. Göründüyü kimi, bütün hədəf və məqsədimiz aydındır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı, Azərbaycan ordusu 44 günlük müharibədə qələbə əzmini dünyaya nümayiş etdirdiyi kimi, bundan sonra da qarşıya qoyduğu məqsədləri reallaşdıracaqdır.

***Zümrüd BAYRAMOVA***

# Rusiyalı ekspert: "Qarabağ məsələsi bağlanıb, Ermənistan və Qərb bunu başa düşməlidir"



**Tanınmış rusiyalı politoloq Aleksandr Razuvayev Aİ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin görüşünün bir ay ərzində ikinci dəfə ləğv edilməsinin səbəbləri və Ermənistanın baş naziri Nikol Paşinyanın ziddiyyətli bəyanatları ilə bağlı "Moskva-Baku" portalına şərhində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

*- Aleksandr Yuryeviç, Avropa İttifaqının vasitəçiliyi ilə bir ayda ikinci dəfə İlham Əliyevlə Nikol Paşinyan arasında planlaşdırılmış görüş pozulub. Sizcə səbəb nədir?*

- Azərbaycan uzun müddətdir ki, Aİ-nin özünə qarşı müxtəlif hücumlarına dözürdü, lakin indi Qarabağın qaytarılmasından sonra nəinki yorulub, hətta belə bir addım atmaq imkanı da var. Qərb Azərbaycan kimi müstəqil oyunçuları sevmir. Bundan başqa, Qərb müsəlman dünyasını, türk dünyasını sevmir.

Niyə Azərbaycan fundamental olaraq özünə qarşı mənfi münasibət bəsləyən vasitəçinin "xidmətlərindən" istifadə etməyə davam etməlidir? Üstəlik, bütün problemləri özünüz həll etmisinizsə və bunu etməyə imkanı olmadığı halda niyə onun "xidmətlərindən" istifadə etməyə davam etməlisiniz? Avropa İttifaqı bəzən nə qədər zəhər tüpürsə də, faktiki olaraq Azərbaycana qarşı sanksiyalar tətbiq etməyəcək, çünki bu, onun üçün mühüm enerji mənbəyidir. Üstəlik, gördüyümüz kimi, sanksiyaların tətbiq olunduğu ölkələr son nəticədə onlara uyğunlaşır. Biz bunu Rusiya və İranın timsalında görürük.



Qərəzli vasitəçi ilə iş görə bilməzsiniz. Azərbaycan diplomatik cəhətdən güc və sakitlik nümayiş etdirir. Ermənistan-Azərbaycan münaqişəsinin ən əsas məsələsi- Qarabağ məsələsi bağlanıb. Tam şəkildə. Bunu Putin, Lavrov və Rusiya hökumətinin bütün nümayəndələri də deyib.

Azərbaycana təzyiq etmək olmaz. Xüsusən də o, Qarabağı tamamilə qaytardıqdan sonra. Üstəlik, beynəlxalq institutların və vasitəçilərin 30 illik fəaliyyətsizliyinə və Ermənistanın müxtəlif hakimiyyət orqanlarının ərazilərin ədalətli şəkildə öz sahibinə qaytarılmasının qarşısını almaq cəhdlərinə baxmayaraq, o, ümumilikdə bütün ərazilərini geri qaytarıb. Azərbaycan özünü təkcə regional postamentdə deyil, həm də regiondan kənarda yerləşdirib.

İndi Azərbaycan incə, diqqətlə, diplomatik yolla göstərir ki, bundan sonra hansı addımın atılacağını vasitəçilər yox, məhz özü seçir. Və o, bunu müasir dünyada çox olmayan, lakin geosiyasi vəziyyətin dəyişməsi ilə sayı artan suveren dövlətlərdən biri kimi edir. Artıq regionda olan Azərbaycan Qərbə göstərir ki, onu nəzərə almaq lazımdır. Qərb hegemonluğu baxımından bu, ağlasığmazdır. Lakin bu duruş hörmətə layiqdir.

*- Rusiya-Ermənistan münasibətlərində getdikcə artan problemləri necə xarakterizə edərdiniz? Çoxları Nikol Paşinyanın düşünülmüş siyasətinin, onun Ermənistanı Rusiyadan qoparmaq vəzifəsi ilə hakimiyyətə gətirildiyinə bağlı olduğunu deyirlər. Yaxud ikinci variant- belə ilkin vəzifə yox idi və o, şəraitə uyğun hərəkət edir və Qərb bundan Cənubi Qafqazdakı problemlərinin həlli üçün alət kimi istifadə edir.*

- İrəvan nədənsə hesab edirdi ki, Rusiya Azərbaycanla münaqişədə Ermənistanı fəal şəkildə müdafiə edəcək, həm qidalandıracaq, həm də mübarizə aparacaq. Və bunun belə olmadığı ortaya çıxanda Paşinyan başqa "sponsor" və "müdafiəçi" axtarmağa qaçdı. Və indi də bunu davam etdirir. Bu, çox da uğurlu olmayan mövqedir. Biri ilə alınmır, başqasını taparam. Amma sponsor olmalı və mənim problemlərimi həll etməlidir. Hesab edirəm ki, Paşinyanın siyasətində hər şey situativdır.

*- Niyə Rusiya əvvəllər olduğu kimi Ermənistanın problemlərini həll etməyə başlamadı?*

- İndiki Rusiya çox praqmatikdir. Bəli, imperiya dövründə, Sovet İttifaqı dövründə Rusiya ermənilərə dəstək verib. Bu gün Rusiya, Şərq dövlətləri, İslam dünyası, o cümlədən türkdilli ölkələrlə əlaqələri gücləndirir. Bunlar dövrün geosiyasi tendensiyalarıdır. Bundan başqa, Azərbaycan beynəlxalq statusunda çox yüksəlmişdir.

*- Qərb Ermənistana hər cəhətdən fəal şəkildə kömək edir: Qarabağla bağlı siyasi vəziyyəti, konkret olaraq ərazidə və mənəvi cəhətdən maliyyələşdirməklə. Avropa İttifaqı bir struktur olaraq və ayrı-ayrı Aİ ölkələri Ermənistana maliyyə vəsaiti göndərir, Kanada və ya Fransa kimi ayrı-ayrı ölkələr respublikaya gəlir...*

- İrəvan ölkənin təhlükəsizliyinin istiqamətini dəyişəcəyini bildirib. Biz artıq İrəvanla Paris arasında silah tədarükünə dair razılaşmanı və əslində ordu islahatının daha yüngül variantını görürük. Yəni, NATO sisteminəə keçid islahatlarının başlanğıcı. Qərb Cənubi Qafqazda mövcudluğunu gücləndirəcək. O, regionda öz vassalının olmasını istəyir. Bu isə təkcə Rusiyaya qarşı deyil, həm də Türkiyə, İran və Azərbaycana qarşıdır.

Ermənistanda NATO bazası olacaqmı? Paşinyan ölkəsini yaxşı satmağa çalışmalıdır ki, ona pul versinlər. Çünki Ermənistan çox problemli ölkədir. Ermənistanı Qərbin forpostuna çevirməyə çalışırlar. Paşinyanın bəyanatlarında həmişə çoxlu ziddiyyətlər olur. O, həm də öz millətçilərinə diqqət yetirir. Beyin yoxdur, istək var. Beləliklə, ziddiyyətli ifadələr. Ölkəsinin milli maraqları, iqtisadiyyatı önəmli olan dövlət başçısı razılığa gəlməyə çalışardı. Və əvvəllər Ermənistan Qarabağla bağlı kompromislər barədə düşünməli idi. Baş verənlər gözlənilən idi.

Aydın deyil, Ermənistan nəyə ümid edirdaxildə NATO bazalarına, Qərbin onu dişinə qədər silahlandıracağına? Bu baş verməyəcək. Tutaq ki çoxlu NATO bazaları var, nə olacaq ki? Qərb Ermənistanı silahlandırsa belə, uzağı müəyyən silahlar verəcək, amma çətin ki, bu, havanı kökündən dəyişsin. NATO isə və münaqişəyə və Ermənistanın birbaşa müdafiəsinə qarışmayacaq.

Əgər Ermənistan, separatçılar və ya onların lobbiçiləri qisas almaq istəsələr, bunun sonu son dərəcə acınacaqlı olacaq. Çünki Azərbaycanın hərbi-iqtisadi komponenti qat-qat güclüdür. Amma Qərb o qədər də kömək edə bilməyəcək.

*- Paşinyan son açıqlamalarında İrəvanın qonşuları ilə münasibətləri inkişaf etdirməyin vacib olduğunu söylədi, Tiflisdə isə dedi ki, biz nəqliyyat və iqtisadi əlaqələrin açılmasını istəyirik. Yekun nəticə nədir - bunu istəyirlər, ya yox?*

- Yumşaq desək, Ermənistan üçün yaxşı olardı ki, çoxdan qonşuları ilə münasibətləri yaxşılaşdırsın, ticarət etsin, əhalisinin həyat səviyyəsini yaxşılaşdırsın. Amma təcrübənin göstərdiyi kimi, Ermənistan əks bəyanatlar versə də, nədənsə buna o qədər də hazır deyil. Ümumiyyətlə, onlar xalqın necə yaşadığına əhəmiyyət vermirlər.

Biz indi Zəngəzur dəhlizi ilə bağlı necə maraqlı tendensiyaların inkişaf etdiyini görürük. Rəsmi Bakı bəyan etdi ki, İrəvanın özü də buna maraq göstərməlidir, çünki Azərbaycan artıq İranla Zəngəzur dəhlizinə alternativ yolu həyata keçirməyə başlayıb. Rusiya baş nazirinin müavini Overçuk isə Ermənistanın bu dəhlizlə bağlı qərar vermədiyini bildirib. Ona görə də Ermənistanın "qatarı" yenidən yola düşür və ənənəyə uyğun olaraq (onilliklərdir ki) yenə başqalarının yox, özünün vəziyyətini pisləşdirir.

Bu mövqe normal ölkənin mövqeyi deyil. Bunlar istəklər, arzular, duyğulardır. Ancaq siyasətdə və diplomatiyada bu mümkün deyil- nəyin kimin xoşuna gəlmədiyini heç vaxt bilmirsən. Ermənistan mövcud qonşuları əsasında mövcud olmağı öyrənməlidir. Və qonşular çox konstruktiv və praktikdir. Nə qədər ki, hər hansı bir hakimiyyət altında olan Ermənistanın ancaq arzuları və "istəkləri" var, o, heç vaxt ölkəsi üçün yaxşı heç nəyə nail olmayacaq. Paşinyan eyni vaxtda bir neçə stulda oturmaq istəyir.

*-Sülh müqaviləsinin taleyi necə olacaq?*

- Onun perspektivinə kimin ona daha yaxşı təzyiq göstərməsindən asılı olaraq, milli maraqlarını müdafiə edən Azərbaycanın siyasəti ilə ora-bura fırlanan Ermənistanın siyasəti prizmasından baxılır. Qərbin bütün fəallığına baxmayaraq Rusiyanın yenə də Paşinyana təzyiq edə biləcəyini istisna etmirəm.

*Tərcümə - Elçin Bayramlı*

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabrın 27-də YAP İmişli rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayonun Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonra keçirilən dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib. Sonda xatirə fotosu çəkdirilib.



# Verilən vəd, yetişən zaman







“Mənim yadımdadır, füzulililərlə və digər rayonlardan olan keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə, xüsusilə yeni şəhərciklərin açılışı tədbirlərində deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Biz çalışırıq və çalışacağıq ki, sizin yaşayış səviyyənizi yaxşılaşdıraq, həyatınızı müəyyən dərəcədə yüngülləşdirək, ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Şuşada daha gözəl evlər tikiləcək, daha gözəl şərait yaradılacaq. Bax, bu gün gəldi, artıq bu, gerçəkdir, bu, reallıqdır”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib. Həmin gün yetişdi. Zəfər qazanan Azərbaycan Qarabağımızda, Şərqi Zəngəzurda böyük quruculuq işlərini davam etdirir. Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kəndi müasir məkana çevirir. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu ərazilərimizə səfərləri zamanı görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur. Tamamilə yeni bir dövr yaşanılır və bu torpaqların əzəli sakinlərinin işğaldan azad edilmiş torpaqlara mərhələ-mərhələ qayıdışı böyük canlanmaya səbəb olub. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idisə, bün artıq bu istiqamətdə aparılan işlərin məntiqi olaraq köç karvanları digər ərazilərimizə mərhələli olaraq da yol alırlar. Ağalı, Talış kəndi, sonra isə Laçın, Füzuli

## “GÖRÜN BİZİM HƏM HƏRBİ, HƏM SİYASİ MÜSTƏVİDƏ NƏ QƏDƏR BÖYÜK UĞURLARIMIZ VAR”

Son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən üç il ötsə də hərb tarixində yeni səhifə açmış 44 günlük Vətən müharibəsindən ölkəmizdə, eləcə də dünya ölkələrində hələ də danışılır, müzakirələr aparılır. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. Xalq-Dövlət-Ordu birliyinin ən yüksək səviyyədə olduğunu bütün dünya gördü. Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti və nəticələri hələ uzun müddət təhlil ediləcəkdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yürütdüyü güclü daxili və xarici siyasət, Preazident kimi fəaliyyəti dövründə qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər, qazandığımız qələbəni şərtləndirən başlıca amillər sırasındadır. Məlumdur ki, 1 dekabr 2020-ci il tarixində Laçın işğaldan azad olundu. Azərbaycan Prezidenti İlham Əliyevin 1 dekabr tarixində xalqa müraciətində Laçın rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirmişdir: ”Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq” - deyən Cənab Prezident qeyd etmişdir ki, döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı: ”Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq”.

Vurğulayaq ki, Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladıqları birgə Bəyanata uyğun olaraq, Ermənistan tərəfindən ərazilərin boşaldılması qrafik üzrə həyata keçirilib. Həmin qrafikə əsasən, dekabrın 1-də Laçın rayonu da erməni işğalından azad edildi. Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçın rayonuna daxil oldu. Bildiyimiz kimi, Ermənistan tərəfindən Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir, - deyən Prezident vurğulayıb ki, biz 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq: ”Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var”.

Laçın işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Onların öz doğulduqlara göndərilməsi əsas məsələlərdən biridir. Təbii ki, işğldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb. ” hər tərəf dağıdılıb, infrastruktur dağıdılıb, binalar sökülüb, inzibati binalar sökülüb. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq” - deyə Azərbaycan Prezidenti qeyd etmişdir.

## ”VƏHŞİ DÜŞMƏN BİZİM MEŞƏLƏRİMİZİ 30 İL ƏRZİNDƏ QIRIB, TALAYIB”

Xatırladaq ki, Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə zəngin olan bir diyardır. Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşən Laçın şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayon respublikamızın təbii sərvətləri ilə zəngin guşələrindəndir. Ərazisində dünyada nadir ağac növlərindən hesab olunan qırmızı dəmirağac meşələri, çox sayda mineral su bulaqları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, cürbəcür dərman bitkiləri vardır.



# Namusun cinsi yoxdur

Lalə Mehralı

Haradasa oxumuşdum ki, namus anlayışı kişilər vasitəsilə yaranıb və qadınlara yüklənib. Halbuki namus ümumi qavramdır və bütün insanlar üçün mahiyyəti eynidir. İnsanlar namus məfhumunu həqiqət və dürüstlük məfhumundan kənarlaşdırıb onu xırda, maddi şeylərlə əlaqələndiriblər zamanla. Çünki yalnız qadınların çiyinlərinə yüklənən namus anlayışı şərəf, iffət və qürur kimi ülvi məfhumları da primitivləşdirir. Cəmiyyətdə elə bir fikir formalaşdırılır ki, namus yalnız qadınlara xas xüsusiyyətdir və kişinin etdiyi əxlaqdan kənar hərəkətlər namus qavramına aid deyil.

Yaşadığımız dövr insanlığın imtahanıdır və əfsus ki, bəşəriyyət bu imtahandan keçə bilmədi. Mövcud vəziyyətin yaratdığı mənəvi böhran sürətlə dərinləşir və cəmiyyətin parçalanmasına doğru gedir. Əxlaq, insan və insan münasibətlərinin ən təməl dəyərlərindən biridir. Amma təəssüflər olsun ki, bəzən cəmiyyətdə əxlaqi hərəkətlərin yalnız bir cinsə aid edilməsinin şahidi oluruq. Mən nə demək istəyirəm? Şərəf, həya, ar, iffət, namus kimi məfhumların yalnız qadınlara aid edilməsi məni narahat edir. Hansısa bir qadının namus üstündə öldürülməsi, amma onu öldürənin illərin namussuzu olması faktı cəmiyyətdə hamını narahat etməlidir, amma etmir.

Mənəvi dəyərlərin cəmiyyətin bir seqmentinə və ya iki cinsdən birinə aid olması fikri insanları dəyərsizləşdirir, fikrimcə, bu, zamanla cəmiyyətdə əxlaqsızlığın qanuniləşməsinə gətirib çıxarır. Sadiqliyi, iffəti, həya və namusu yalnız qadınlara məxsus dəyərlər kimi görmək və onları qadınlardan gözləmək normal davranış deyil. Əgər iki cins qərar verib ailə olursa, ikisinin də bu ailə üçün öhdəlikləri var və həya, namus, şərəf, sədaqət hər ikisi üçün də eyni dərəcədə öhdəlik olmalıdır.

İffət... Ən son nə vaxt eşitmisiniz bu sözü? İffət insani keyfiyyətdir, sonradan yaranmır, satılmır, alınmır. Bu keyfiyyət yalnız qadınlara aid deyil. Nikah zamanı o imza ilə kişi və qadın bir-birinə söz verirlər, əslində - həm özlərinin, həm də ailənin iffətini, namusunu qorumaq üçün. Yəni bu vəd təkcə qadınların deyil, kişilərin də vədidir. Vədini pozan, ailə birliyinə, iffətinə xələl gətirən tərəf kişi olanda ”kişidir, yenə ailəsinə qayıdacaq” deyən cəmiyyət qadın üçün eyni tolerantlığı göstərmir. Halbuki, hər ikisi üçün iffət anlayışı eynidir və biri digərindən üstün deyil.

İffəti cılızlaşdırıb ”insanların maddi ləzzətlərə meyli” kimi xarakterizə etmək yanlışdır. Çünki insanın bütün həyatı boyunca əməl edəcəyi bu insani keyfiyyət yalnız namus sözü ilə sinxronlaşdırmaq doğru deyil. İffət yalnız qadınlara xas olmayan, insanları əhd-peymanlarına sadiq edən, həddi aşmaqdan qoruyan, öz nəfsi və şəxsi ambisiyalarına görə cəmiyyətə zərər verməkdən çəkindirən bir keyfiyyətdir, hər nə qədər son illər nadir rastlanan xüsusiyyət olsa da.

Namus anlayışı mühafizəkar cəmiyyətlərdə insanlar üçün həyati əhəmiyyət kəsb edən anlayışlar arasındadır. Namusun qorunması insanın, xüsusilə qadının doğulması ilə başlayır və ömrü boyu davam edir. Əslində, kişi və qadından asılı olmayaraq hər kəsin öz namusunu qoruması olduğu fikri kiçik yaşlarından aşılansa bəlkə cəmiyyətdə namus kəlməsi bu qədər müzakirə edilməzdi. Bakirəlik, iffət, həya, ar, namus anlayışları yalnız qadınlara aid edilməsə, kişilər üçün də bu anlayışların böyük məna kəsb etdiyini aşılasalar bəlkə də bu qədər çox namus davası edilməz. Qadın öz namusunu, iffətini qoruduğu kimi kişilər də maksimum diqqət etsə nə ailələr dağılar, nə boşanmalar yüksələr, nə də abır-həya itər. Amma qadına biçilən o dar don kişilərə ”ovesize”dir. Kişi ailəsinə xəyanət edəndə ”kişidir, bir səhvdir edib” anlayışı göstərən cəmiyyət qadın üçün ölüm fərmanı yazır. İkisi də eyni günahı, eyni səhvi edib, ailə bütünlüyünə hər ikisi xələl gətirib, amma cəza qadına, səfa kişiyə...

Ailə bütövlüyü yalnız qadının yükü olmamalıdır, ümumiyyətlə, ailə qavramı yük olmamalıdır. Bu, könüllü qurulan müəssisədir və hər iki tərəf üçün də vəzifə, öhdəlik eynidir. Nə qədər ki, öldürülən hər qadın üçün ”yəqin bir namussuzluğu olub” düşüncəsi hökmran olacaq, o müddətcə namus anlayışı yalnız qadının iki ayaq arasında axtarılacaq. Nə qədər ki kişilərin namus anlayışı cinsi münasibətlərdən uzaq tutulacaq, kənarda qarışdırdığı qələtlər ört-basdır ediləcək, o müddətdə də namus anlayışı don dəyişdirəcək. Namusu qadın, namussuzluğu kişi üçün normallaşdıran cəmiyyətlərdə ailə məfhumu məhvə məhkumdur. Namus insani keyfiyyətdir və cinsi yoxdur.

Laçın abidələri hələ eramızdan əvvəl I-II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər dəyərli və nadir abidələrdəndirlər. Buranın təbiəti isə xüsusilə füsünkardır. Laçın rayonunda 22 min hektarı meşə sahəsi var: ”Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda, işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağ ciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır”.

## STRATEJİ ƏHƏMİYYƏTƏ MALİK LAÇIN BEYNƏLXALQ HAVA LİMANI

Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Eləcə də düşmən işğalından azad olunan Laçınımızda. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. Prezident İlham Əliyevin ”Laçın rayonu, Zabux kənd tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında” 22 sentyabr 2022-ci il tarixində Sərəncam imzaladı. Dövlət başçımız Laçın şəhərində Azərbaycan Bayrağını ucaldarkən belə demişdir: ”Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır”. Strateji əhəmiyyətə malik olan Laçın Beynəlxalq Hava Limanının təməli qoyulub. Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

## YENİ QURUCULUQ İNKİŞAF DÖVRÜ - AZAD EDİLMİŞ ƏRAZİLƏRİMİZİN BƏRPASI DÖVRÜ

Azərbaycanın əzəli, tarixi torpaqları işğaldan azad olunub. ”Bizim ölkəmiz üçün yeni dövr başlayır”, deyən dövlət başçısı artıq ölkəmizdə yeni dövrün başlandığını bildirmişdi: ”Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir”.



## ”SİZ UZUN ƏZABLI İLLƏRDƏN SONRA BURADA RAHAT YAŞAYASINIZ”

Artıq əzəli sakinlər Laçınla, doğma yurdla görüşürlər. Əlbəttə ki, bu gün Zəfər qazanmış xalq olaraq bu torpağa ayaq basır. Ermənıyə dərs verən və ona kimliyini göstərən Qalib Xalq kimi. Bu Qələbə əlbəttə ki, Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəriciləri sırasındadır. İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Müharibədən ötən müddət ərizndə görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: ”Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız”.

Laçınlıların bir qismi bu gün doğma yurdyuvalarındadırlar. Keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı davam edir. Oktyabrın 20-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı ”Qobu park 3” yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə (83 nəfər) köçürülür. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmalarına imkan yaranıb.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.Bununla da Laçın şəhərində 295 ailənin (1135 nəfər) daimi məskunlaşması təmin ediləcək.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARI ƏRAZİSİNDƏ İCRA OLUNAN LAYİHƏLƏR

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastruktur layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastruktur layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını ”Zəfər yolu”ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir. Layihəyə əsasən, yolun 6,7 kilometrliyində ”Qarğabazarı” adlanan






ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir.

Köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür.

***Zümrüd BAYRAMOVA***

# “Azərbaycan mühüm iki istiqamət üzrə böyük iqtisadi gəlirlər əldə edəcək”

“Azərbaycanda həm ölkənin iqtisadi inkişafı, həm də Avropa İttifaqı və Azərbaycan münasibətlərinin gələcək inkişafı ilə bağlı mühüm hadisə baş verdi. Xəzər Avropa İttifaqı Enerji Dəhlizinin əsasları qoyuldu. Bu dəhliz XXI əsrin yeni enerji dəhlizi hesab oluna bilər. Çünki Azərbaycanda istehsal ediləcək yaşıl enerji ölkəmizə yeni iqtisadi dividentlər gətirəcək”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Hikmət Babaoğlu deyib.



Deputat bildirib ki, paralel olaraq yaşıl enerji istehsalı Azərbaycanda hazırda elektrik enerjisi üçün xərclənən milyardlarla kubmetr qazın ixracına səbəb olacaq: ”Beləliklə, Azərbaycan mühüm iki istiqamət üzrə böyük iqtisadi gəlirlər əldə edəcək. Eyni zamanda, bu ixracat Şərqi Avropa ölkələrinə də çatdırılacaq. Bu isə özlüyündə həmin ölkələr ilə Azərbaycanın münasibətlərinin yeni mərhələyə daxil olması deməkdir”.

***Səbinə Hüseynli***

# Sənət dünyamızın əvəzsiz rejissoru Mehdi Məmmədov - 105

Əsrlərdən səsi eşidilən, hər zaman toy-büsatlı olan Şuşamız tarixin dönəmlərində çox hücumlara məruz qalsa da başını dik tutub, əyilməz, məğlubedilməz olub. Çox gözlər dikilib bu diyara. Hər daşında bir tarix yaşar, bir tarix danışılar. 28 il erməni işğalı altında qalan Şuşamız bu gün azad nəfəs alır və dirçəlir. Şuşada, Cıdır düzündə festivallar, tədbirlər keçirilir, xalqın ruhu, istəyi öz ifadəsini tapır. Qarabağ bölgəsində yerləşən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa ölkəmizin ən mühüm şəhərlərindən biri olmuşdur. Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaranıb. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad adlandırılan Şuşada 17 məhəllə vardı və hər məhəllədə hamam, məscid və bulaq yerləşirdi. XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü.

Bu tarixi şəhərdə məşhur aktyorlar, rejissorlar, yazıçı və şairlər də yetişdi. Azərbaycan teatr rejisoru, aktyoru və pedaqoqu, sənətşünaslıq doktoru, Xalq artisti Mehdi Məmmədov da böyük sənətkarlar yetişdirən məkanda Şuşada dünyaya göz açmışdır. Azərbaycan teatr sənətinin çox görkəmli rejissorlarından olan Mehdi Məmmədov, həqiqətən də, bu sahədə özünəməxsus bir məktəbin təməl daşını qoymuş və bu möhtəşəm binadan neçə-neçə rejissorlar nəsli yetişərək gözəl tamaşaların səhnələşdirilməsinə nail olmuşdur. Mehdi Məmmədovun sənət tarixindəki mövqeyi və rolu onun quruluş verdiyi tamaşalarda daha aydın şəkildə özünü göstərir. Bu tamaşaların hər biri sənət tariximizdə qızıl əsərlər hesab olunub, siyahıya daxil edilmişdir.

## YÜKSƏK SƏHNƏ NİZAMINA UYĞUN ƏSƏRLƏRİN BƏDİİ HƏLLİNƏ MÜVƏFFƏQ OLDU

Görkəmli sənətkarlardan təhsil alan və bu sahədə mükəmməl şəkildə mütəxəssis kimi yetişən Mehdi Məmmədov, yaradıcılıq yoluna ömrünün gənclik dövrlərində başlamış, qısa bir müddətdə istedadını səhnələşdirdiyi əsərləri vasitəsilə büruzə vermişdir. Qeyd edim ki, Mehdi Məmmədov 1940-cı ildə Lunaçarski adına Moskva Dövlət Teatr Sənəti İnstitutunu bitirmişdir. Ötən əsrin 40-45-ci illərindən Kirovabad (Gəncə) Dövlət Dram Teatrında rejissor kimi çalışmış, yiyələndiyi nəzəriyyəni və təcrübəni burada göstərə bilmişdir. Qeyd olunan sənət məktəbində çalışdığı müddət ərzində klassik sənətkarların əsərlərini səhnələşdirmiş və həmin tamaşalar uzun müddət teatrın repertuarında xüsusi yer almışdır. Belə ki, o, Mirzə İbrahimovun "Madrid", Cəfər Cabbarlının "Od gəlini", "Oqtay Eloğlu", Səməd Vurğunun "Vaqif", Mehdi Hüseynin "Nizami" tamaşalarına quruluş verərək, çox yüksək səhnə nizamına uyğun əsərlərin bədii həllinə müvəffəq olmuşdur.



Bu teatrda qısa bir müddət işlədikdən sonra Mehdi Məmmədov 1946-cı ildə Azərbaycan Dövlət Dram Teatrına dəvət alır. Böyük sənətkarların çalışdığı bu sənət məbədində rejissor kimi çalışmaq sənətkar üçün nə qədər məsuliyyətli olsa da belə o, qeyri-adi istedadı nəticəsində göstərilən etimadı doğruldur və teatrın baş rejissoruna çevrilir. Qeyd edək ki, Mehdi Məmmədov bu teatrın səhnəsində çox möhtəşəm tamaşalarda baş rollara təyin olunmuş, özünəməxsus tərzdə yüksək xarakterə malik insanların obrazını canlandırmışdır. Mehdi Məmmədov bu obrazlara, demək olar ki, ikinci həyat bəxş etmişdir. Onun bu obrazlarının hər birində aktyor həyəcanı, emossiyası özünü büruzə verir. Bu teatrda onun Vilyam Şekspirin "12-ci gecə", Lope de Veqanın "Rəqs müəllimi", Mehdi Hüseynin "Alov", Hüseyn Cavidin "Xəyyam" tamaşalarında baş obrazların yaradıcısı kimi uğur qazanması, təbii ki, böyük məktəb keçmiş şəxslərdən təhsil alması ilə əlaqələndirmək mümkündür. İstedad ilə tədrisin mükəmməlliyi Mehdi Məmmədovu sənət aləmində böyük sənətkar tituluna yüksəldə bildi. Onun oynadığı tamaşaların hər biri teatr aləmində əhəmiyyətli yer tutur.

## QURULUŞ VERDİYİ TAMAŞALARDAN BÖYÜK MƏHƏBBƏTLƏ DANIŞILIR

Mehdi Məmmədova qədər klassik əsərlərdə bir çox sənətkarlar fərdi qaydada obrazlar yaratsalar da, onun ifaçısı olduğu rolların hər biri bənzərsizliyi ilə seçilmiş, hətta yaratdığı obrazların adı ilə teatrsevərlərin yaddaşında iz salmışdır. Çoxşaxəli və məzmunlu yaradıcılıq yoluna malik olan Mehdi Məmmədovun sənət yolu təkcə Azərbaycan Dövlət Dram Teatrı ilə məhdudlaşmamışdır. O, bu illər ərzində bir neçə teatrda rejissor kimi çalışmış və gözəl əsərlərin səhnələşdirilməsində müəllif yozumu ilə öz yozumunu birləşdirərək, aktyorların ifasında gözəl məntiq və ideyaya malik olan saysız əsərlərə səhnə həyatı vermişdir.

Belə ki, Mehdi Məmmədov Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında baş rejissor işlədiyi illərdə Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Koroğlu", Cahangir Cahangirovun "Azad" və digər operalara quruluş vermiş və həmin əsərlər uzun illər opera teatrının səhnəsində böyük uğur qazanmış, hətta dünya ölkələrinin səhnələrində belə oynanılmışdır. Onun quruluş verdiyi əsərlərin təcrübəsindən sonrakı rejissorlar bəhrələnərək, yeni bir quruluşda adlarını qeyd etdiyimiz bu və ya dikər əsərləri səhnələşdirmişdilər. Onu da etiraf edək ki, yüzillik tarixi olan "Leyli və Məcnun" operasına bir çox rejissorlar quruluş versələr də, Mehdi Məmmədovun quruluş verdiyi tamaşa haqqında bu gün böyük məhəbbətlə danışılır. Mehdi Məmmədov həm quruluş verdiyi əsərlərin müəllifinə, həm də öz yaradıcılıq yoluna hörmət əlaməti olaraq heç vaxt təsadüfi və istedadsız şəxsləri tamaşalarına dəvət etməmiş, böyük aktyorluq məharətinə malik olan sənətkarlarla işləməyə önəm vermişdir.

## MÖHKƏM TƏMƏLLİ YARADICILIQ MƏKTƏBİ

Mehdi Məmmədovun yaradıcılıq yolunun bir qolu da Səməd Vurğun adına Rus Dram Teatrı ilə bağlıdır. O, bu sənət məbədində 1978-ci ildə fəaliyyətə başlamış baş rejissor vəzifəsində çalışmışdır. Mehdi Məmmədovun yaradıcılıq irsinə diqqət yetirsək, görərik ki, o, sənət tariximizdə həm istedadlı rejissor, həm də qeyri-adi potensiala malik aktyor kimi tanınmışdır. Ciddi görkəmi, səs imkanları, aktyorluq manevrləri, jest və mimikaları ilə tamaşaçıda böyük məhəbbət doğuran aktyor sənət tariximizdəki Xəyyamı, Protosovu, Fərhad Kamalovu və digər obrazları ilə təkrarsız olduğunu bir daha təsdiqlədi və rolların mahir ifaçısı olaraq əbədiləşdi.

Mehdi Məmmədov 1969-1976-cı illərdə Azərbaycan teatr cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. Bu illərdə teatrın inkişafına və onun görkəmli nümayəndələrinə diqqət yetirmiş, sənət məbədlərində çox gözəl məzmuna malik olan əsərlərin səhnələşdirilməsinə nail olmuşdur. Qeyd edim ki, Mehdi Məmmədov bir pedaqoq kimi də böyük xidmətlər göstərmişdir. O, uzun illər Azərbaycan Dövlət İncəsənət Universitetinin kafedra müdiri, professoru olmuş, bu illər ərzində də Azərbaycan teatr sənətinə aktyorlar nəslini və rejissorları yetişdirmişdir. Bütün bunlarla yanaşı, onun milli dramaturgiya, incəsənət nəzəriyyəsi və estetikaya dair əsərləri də işıq üzü görmüşdür. Bu əsərləri ilə Mehdi Məmmədov tədris prosesində tələbələr üçün əyani vəsaitin nə qədər vacibliyini nəzərə almış və bu məqsədlə də belə kitabların ərsəyə gəlməsini əhəmiyyətli hesab etmişdir. Mehdi Məmmədovun müxtəlif məzmunda olan kitablarından bu gün də tədris proseslərində əyani vəsait kimi istifadə edilir.

Azərbaycan teatr sənətinin görkəmli nümayəndəsi olan Mehdi Məmmədovun dünyasını dəyişməsinə baxmayaraq, yaratdığı məktəbin təməli o qədər möhkəmdir ki, müasir dövrümüzdə, eləcə də, yaşanılacaq illərdə dünyasına hər zaman müraciət olunacaq və ondan sənətin inkişafı yolunda çox böyük dəyərlər əxz ediləcəkdir. Bu gün sənət tariximizdə Mehdi Məmmədovun adını çox böyük iftixarla çəkir və yad edirik. Belə sənətkarların yaradıcılıq irsinin nəticəsi olaraq, teatr sənəti inkişaf edir və yaşayır.

*Zümrüd BAYRAMOVA*

# "Ermənistan çox təhlükəli oyuna qatılıb"

*POLİTOLOQ FİKRİ*

"Fransanın son bilavasitə Qafqazla əlaqələndirilən siyasi cərəyanları bir şeydən xəbər verir ki, Fransaya mütləq şəkildə Qafqaz bölgəsində yerləşmək lazımdır. Bunun üçün də Ermənistandan istifadə edir. Bu tək Parisin istəyi deyil. Onun arxasında həm Aİ-nin, həm də kollektiv Qərbin istəyi var. Çünki kollektiv Qərb çoxdandır ki, dünya siyasətində parçalanmış bir tərzdə özünü büruzə verir. Yəni, vacib istiqamətlərdə Amerika ayrı, Qərbi Avropa isə ayrı fəaliyyət göstərir. Amma bu nə qədər paradoksal görünsə də həqiqətdir ki, onlar Qafqazda həmahəng çıxış edirlər. Yəni, kollektiv Qərb demək olar ki, Qafqazda mütəşəkkil formada özünü əks etdirir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.

Tofiq Abbasov sözlərinə belə davam edib: "Bəs, nəyə görə onlara bu bölgədə möhkəmlənmək lazımdır? İlk növbədə həm Paris, həm də Vaşinqton çalışır ki, burada hərbi qüvvə ilə təmsil olunsunlar və zəif bənd kimi Ermənistanı gördükləri halda onun əlaqələrindən istifadə edirlər. Bu həm də Rusiyanın buradan sıxışdırılıb çıxarılması ilə bağlıdır. Bilirsiniz ki, son günlər söhbətlər elə tərzdədir ki, Ermənistandan Rusiyanın hərbi bazasının çıxarılması və Rusiya ilə






münasibətlərin yenidən formatlaşması məsələsi gündəmə gəlir. Bu Rəsmi Moskvaya heç bir divident gətirməyəcək. Əksinə, Moskva bu proseslərdən itirəcək.

İndi görünür ki, Nikol Paşinyan vəd verib və zəmanət daşıyıcısı kimi çıxış edərək Qərbi inandırmağa çalışır ki, "Siz bizə kömək edin. Biz də sizin istəklərinizi burada həyata keçirək". Rusiya təbii ki, bu proseslərin içindədir və nə baş verdiyini bilir. Rusiya heç vaxt imkan verməyəcək ki, Ermənistan onların başı üzərindən hərəkətlərə yol versin. Əvvəlcə Ermənistan KTMT-dən çıxsın. Bunun özünün prosedurları var. Ermənistan da rəsmi şəkildə bunu irəli sürsün. Rusiyanın ola bilsin ki, Qafqazda mövqeləri zəifləyib. Amma bu bir o qədər də deyil ki, xoşluqla Ermənistanı itirsin və bu itkisindən də onun rəqibləri yararlansın. Ermənistan çox təhlükəli oyuna qatılıb və Fransa ilə də buna görə yaxınlıq edir. Çalışır ki, Fransa üçün faydalı olsun. Amma bu fayda heç bir bölgə ölkələri üçün heç bir imtiyaz vəd etmir.

Fransanın məqsədi odur ki, Qafqaz bölgəsində öz maraqlarını yerləşdirsin, platforma qazansın, digər tərəfdən Qafqaz bölgəsi vasitəsilə Mərkəzi Asiyaya öz yolunu açsın. Fransa nə qədər də çalışsa bu məqsədinə nail ola bilməyəcək. Çünki onun müharibə ruhunu bölgəmizə gətirməsi, Ermənistana silah-sursat satması, sistemli şəkildə Azərbaycan maraqlarına qarşı fəaliyyət göstərməsi bundan xəbər verir ki, Fransa xoş niyyətlə yox, çox təhlükəli məramlarla bura yerləşmək istəyir. Biz də buna icazə verməyəcəyik".

*Ayşən Vəli*

# Milli-mənəvi dünyamızın talismanı...

Hər bir xalqın tarixi inkişafı, qarşıya qoyduğu hədəflərə yetişmək əzmi onun malik olduğu milli-mənəvi imkanlardan, dəyərlər sistemindən qaynaqlanır. Qazandığı zəngin milli-əxlaqi keyfiyyətlərini, milli "Mən"ini, heysiyyətini qorumağı bacaran hər bir xalq özünün gələcək yaşam fəlsəfəsini düzgün müəyyənləşdirir, dünya xalqları arasındas layiqli yerini, mövqeyini təmin edir. Bu həqiqəti hər zaman ciddiliklə nəzərə alan böyük strateq Ulu öndər də Azərbaycanı qoruyub inkişaf etdirmək, hansısa mərhələdə milli müstəqilliyə qovuşdurmaq üçün, ilk növbədə xalqımızın zəngin milli - mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu şərtləndirən dəyərlərini hifz etməyə çalışmışdır. Dünyanın ən qədim xalqlarından sayılan azərbaycanlılar tarixən formalaşmış zəngin milli-mənəvi və əxlaqi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr vermiş, ülvi və saf ideallara sarsılmaz bağlılığı ilə daim özünəməxsusluqlarını qorumuşlar. Şərqə məxsus mütərəqqi adət-ənənələrlə Qərbin mötədil dəyərlərinin mənəvi mədəniyyətimizdəki uğurlu harmoniyası həm də milli təfəkkürümüzdə fərqli dünyagörüşləri və mədəniyyətləri bir araya gətirir.

Tarixdə şəxsiyyətin önəmli rolu və fövqəladə təsir imkanları zaman-zaman etiraf olunmuşdur. Böyük, qüdrətli şəxsiyyətlər xalqın sərvətidir-bu gün unudulmaz xatirəsi böyük hörmət və ehtiramla yad edilən Ümummilli liderin həyatı və fəaliyyəti Azərbaycan xalqının və dövlətinin böyük bir epoxası ilə qaynayıb qovuşmuşdur. Ulu öndər milli şüurun oyanışında, formalaşmasında və möhkəmlənməsində misilsiz xidmətlər göstərmişdir-məhz buna görə də mədəni - mənəvi intibahımızın təminatçısı olan bu dahi insan Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi nadir tarixi şəxsiyyətdir. Onun zəngin və mənalı həyat yolu elə şərəfli bir tarixdir ki, gələcək nəsillər zaman-zaman bu tarixi öyrənəcək, ondan ibrət götürəcəklər. Ölkəmizin bütün yaradıcı şəxslərini, ziyalı insanlarını qürurlandıran odur ki, Ulu öndər xalqın yüksəlişində iqtisadi, siyasi, sosial münasibətlərlə bir sırada elm və təhsilin, mədəniyyətin, milli şüuru formalaşdıran bütün digər əsas faktorların rolunu lazımi səviyyədə dəyərləndirmiş, məhz bu yanaşma nəticəsində müstəqil dövlətçilik ideyası intellektual əsaslar qazanmışdır.

Hər bir xalqın taleyində dahi insanlar müstəsna rol oynayır. Ayrı-ayrı dövrlər bu gerçəkliyi inkar etmək üçün nə qədər cəhdlər göstərilsə də, tarix onların əbəs olduğunu sübuta yetirmiş və dahilik möhürü ilə seçilən insanların müstəsna rolunun nə azaldılmasına, nə də kölgədə saxlanılmasına imkan verməmişdir. Zamanın hökmü budur ki, müxtəlif dövrlərin və millətlərin yetirdiyi böyük mütəfəkkirlər məhz tarixin özünə məxsus olmalıdır-çünki tarixi yaradan onlardır. Dünya tarixini, bəşəri sivilizasiyanı yaradan ən mühüm amil qədim dövrlərdən üzü bəri öz xalqına, dövrünə və nəticə etibarilə bütün bəşəriyyətə xidmət göstərmiş dahilərin ideyaları və əməlləridir. Antik dövrün nəhəng zəka sahibləri, sərkərdələr, dövlət başçıları, onların yaratdıqları mədəniyyət abidələri, inşa etdirdikləri qalalar, şəhərlər və qurduqları imperiyalar olmadan bəşər cəmiyyətinin nə tarixini, nə də mövcud durumunu təsəvvür etmək mümkün deyildir. Tarix elə həmin mütəfəkkirlərin zəkasının məhsulu olan imperiyaların, onlara xas olan maddi mədəniyyət nümunələrinin, elmin, ədəbiyyatın, mədəniyyətin yaradılması prosesidir. Azərbaycan xalqının toplum olaraq formalaşması da məhz xalqımızın dahi övladlarının ideyalarının



**Yaşar Əhmədov**
*Fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət*
*Neft və Sənaye Universitetinin*
*"Humanitar fənlər" kafedrasının*
*dosenti*

və əməllərinin bilavasitə nəticəsidir. Azərbaycanın dövlətçilik ənənələri, elmi, mədəniyyəti, incəsənəti onların təfəkkürünün, qəhrəmanlıqlarının, əməyinin və yaradıcılığının məhsuludur. Məhz bunların sayəsində ölkəmiz dünya sivilizasiyasına özünün layiqli töhfələrini vermiş, dövlətçiliyini yaradaraq qoruyub saxlamış, müasir dünyanın bir hissəsinə çevrilmişdir. Azərbaycanın müasir tarixi və bütünlüklə müasir cəmiyyətimiz əsrlər boyu formalaşan ənənələrin, milli-mədəni dəyərlərin və müasirliyin üzvi vəhdəti kimi özünü büruzə verir. Bu baxımdan müstəqil Azərbaycan və onun çağdaş tarixi bir yandan milli-mənəvi dəyərlərin inkişafının, digər tərəfdən isə ümumdünya proseslərinin təsirinin nəticəsi kimi göz önündə dayanır. Azərbaycanın XX əsrin sonları, XXI əsrin əvvəllərinə təsadüf edən tarixi, şübhəsiz, xalqımızın Ümummilli liderinin adı və ideyaları ilə bağlıdır. Ulu öndər xalqda milli heysiyyəti gücləndirmək, onu şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin mədəni irsini yaşatmaq üçün böyük işlər görmüşdür.Tarixdə iz qoymuş böyük şəxsiyyətlər dövlət hakimiyyətini ölkənin yalnız bugünkü mənayefi baxımından deyil, həm də gələcək maraqları nəzərə alaraq qurur, dövlətçiliyin ideoloji-siyasi və iqtisadi əsaslarını formalaşdıraraq optimal dövlət modeli yaratmağa çalışırlar. Müstəqil Azərbaycanın milli inkişaf modelinin banisi Ulu öndər də təkamülə əsaslanan demokratik tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirməklə bərabər, dövlətçiliyin ideoloji, siyasi, hüquqi və iqtisadi əsaslarını fundamental elmi-praktik prinsiplər əsasında müəyyənləşdirmişdir.

Ötən əsrin ortalarından etibarən Azərbaycan xalqının mədəni həyatında yeni dövr başlamışdır. Söz yox ki, bu inkişaf ulu öndərin adı ilə bağlıdır. Bu böyük tarixi şəxsiyyət ilk dəfə Azərbaycanda hakimiyyətə gəldiyi vaxtdan milli-mənəvi dəyərlərimizin əsl mənada himayədarı olmuşdur. Ulu öndər deyirdi: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir." Mədəniyyət və incəsənətin bir çox sahələri haqqında irəli sürdüyü qənaətlərində Heydər Əliyev xalqımızın mənəvi simasına güzgü tutan dəyərlərin təbliğini milli ideologiyanın, bütövlükdə Azərbaycan ideologiyasının vacib və zəruri komponentlərindən biri olmaq şərti ilə ön plana çəkir, mədəniyyəti milli dövlətçilik məfkurəsinin başlıca tərkib hissələrindən biri sayırdı. Ulu öndər demişdir: " Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz... Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir."

Ümummilli lider milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yüksək formasını milli dövlətçilikdə görürdü-bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Dövlətçiliklə milliliyin birləşməsi bütün xalqların ən böyük arzusu və idealı olmuşdur-bu gün biz müstəqil dövlətimizdə milli birlik dövrümüzü yaşayırıq ki, bunun da əsası Ulu öndər tərəfindən qoyulmuşdur. Milli dəyərlərin müasir dövrdə inkişafını ümumbəşəri dəyərlərdən təcrid olunmuş vəziyyətdə təsəvvür etmək qeyri-mümkündür, ona görə də dahi rəhbər mənəvi tərbiyə sistemində milli və ümumbəşəri dəyərlərdən bəhrələnmə məsələsinə böyük əhəmiyyət verirdi. Ümummilli liderin fikrincə, milli dəyərlər milliliyini özündə saxlayaraq məzmununu ümumbəşəri dəyərlərlə zənginləşdirməli, ümumdünya mədəniyyətinin nailiyyətlərindən bəhrələnib inkişaf etməlidir. Dahi insan dəfələrlə qeyd edirdi ki, Azərbaycan xalqının milli mədəniyyətinin və dəyərlərinin gələcək inkişafı baxımından böyük perspektivləri vardır-belə perspektivlərin mövcudluğu bir sıra səbəblərlə izah oluna bilər. Azərbaycan milli mədəniyyətində, milli-əxlaqi dəyərlərində tarixiliklə müasirlik sistemli şəkildə əks olunur-bu sistemli yanaşma milli dəyərlərin inkişafına daim təkan verir, keçmişin nailiyyətlərindən bəhrələnib gələcəyə doğru irəliləmək prinsipinə xidmət edir.

Böyük strateq milli ruhun yüksəlişinə xidmət edən bu və digər addımlarla sanki Azərbaycanın müstəqilliyi üçün etibarlı zəminin formalaşdırılmasına, milli özünüdərk hissinin bu real siyasi məqsəd naminə səfərbər olunmasına çalışmışdır. Ulu öndər respublikaya birinci rəhbərliyi dövründə böyük siyasi ustalıqla xalqda milli özünüdərk hissini gücləndirə, habelə milli kimliyi, düşüncə sistemi barədə dolğun təsəvvür formalaşdıra bilmişdir. Ümumiyyətlə, bu dahi şəxsiyyətin respublikaya rəhbərliyinin bütün fəlsəfi ruhu yalnız xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanışı məramına hesablanmışdır. İdarəçilikdə digər bütün addımlar, o cümlədən iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin etibarlı təməlinə çevrilməli idi. Bu məqsədə yetişmək üçün Ümummilli lider azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşını ilə boğulmasına nəinki imkan verməmiş, eyni zamanda milli məfkurə və düşüncə sahibi olan ziyalıları qorumuş, nəticədə respublikada dissident yazarlar olmamışdır. Həmin dövrdə milli düşüncəli vətənpərvər ziyalılarımızın imperiyanın xüsusi xidmət orqanlarının təqiblərindən qurtulması, insanlarda milli dövlətçilik hissini gücləndirən sanballı əsərlər yazıb-yaratması Ulu öndərin böyük dəstəyi sayəsində mümkün olmuşdur.

Azərbaycan milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi bu dahi insan tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür-o bu məsələdən bəhs edərkən belə deyirdi: "Gənclərimiz milli ruhlda tərbiyə olunmalıdır, bizim milli - mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz". Ümummilli lider milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu öndər deyirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". Respublikaya birinci rəhbərliyi dövründə Ulu öndərin şəxsində təzahür edən milli birlik faktoru məzmun etibarilə Azərbaycanın sürətli inkişafına nail olunmasını və bunun sayəsində milli qürur hissinin möhkəmləndirilməsini ehtiva edirdi. Azərbaycanın az müddətdə keçmiş SSRİ-nin geridə qalmış əyalətindən qabaqcıl respublikalardan birinə çevrilməsi hər bir azərbaycanlıda haqlı olaraq milli qürur hissi yaradır və beləliklə də, azərbaycanlılıq, bu millətə mənsub olduğunu dərk etmək fərddə xüsusi iftixar hissi formalaşdırırdı.

Ümummilli liderin hakimiyyətinin birinci dövründə humanitar və ictimai elm sahələrində, xüsusən də hüquq elmində böyük irəliləyişlər əldə edilmiş, Azərbaycan dilinin, tarixinin tədqiqi sahəsində uğurlu nəticələr qazanılmışdır. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, respublikamızda böyük iqtisadi, elmi və ədəbi-mədəni potensialın yaradılması bu uzaqgörən siyasətin nəticəsi olmuş, xalqın azadlıq idealları, XX əsrin əvvəllərindəki azərbaycançılıq, dövlətçilik dəyərləri ictimai şüurda geniş meydan tapmışdır. Milli-mənəvi şüura qayıdış çağdaş milli varlığın təsdiqi kimi reallaşmış, zəruri tarixi-mənəvi prosesə çevrilmişdir. Müasir Azərbaycan cəmiyyətinin qurucusu missiyasının məhz Ümummilli liderə məxsus olması barədə qənaətin formalaşması təkcə onun Azərbaycana uzun müddət rəhbərlik etməsi deyil, daha çox bu rəhbərliyin zəngin məzmuna malik olması faktına əsaslanır.

*Ardı Səh. 12*

Əvvəli Səh. 11

# Milli-mənəvi dünyamızın talismanı...

Tam qətiyyətlə və cəsarətlə demək olar ki, Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövr onun tarixinin xüsusi, ən intensiv inkişaf mərhələsini təşkil edir. Bu mənada həmin dövrü tariximizin sürətli və hərtərəfli yüksəliş illəri, yeni tarix adlandırmaq bəlkə də daha dəqiq qiymətləndirmə nümunəsi olardı. Məhz həmin zaman kəsiyində Azərbaycan malik olduğu böyük intellektual və insani potensialını, təbii resursları - bir sözlə, milli gücü cəmləyib ölkənin qətiyyətli tərəqqisinin qüdrətli amilinə çevirmək imkanı qazanmış, öz tarixinin keyfiyyətcə yeni bir dövrünə qədəm qoymuşdur. Bu qədim və zəngin tariximizə müasir Azərbaycan cəmiyyətinin yaradılması mərhələsi kimi daxil olmuşdur. Böyük tarixi şəxsiyyətlərin rolunu onların yerinə yetirdiyi missiyaya tam adekvat şəkildə qiymətləndirmək həmişə çətin olur.

Bunun bir çox səbəbləri göstərilə bilər. Lakin ən çətin cəhət onunla əlaqədardır ki, dünya miqyaslı tarixi şəxsiyyətlərin yerinə yetirdiyi missiya əksər hallarda xronoloji çərçivələrə sığmır, inkişafın sonrakı gedişinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə tarixi şəxsiyyətlər bir qayda olaraq lideri olduğu xalqın ictimai həyatının gələcək inkişaf konsepsiyasını və strategiyasını müəyyən etməklə onun sonrakı taleyinin də təyin edilməsi məsuliyyətini müəyyən mənada öz üzərinə götürür. Bir sözlə, onlar tarixin elə özünü yaradırlar-tarixi yaradan şəxsiyyətə isə qiymət vermək elə tarixin özünə qiymət vermək qədər məsuliyyət tələb edir. Sözügedən metodika prizmasından yanaşaraq Azərbaycan tarixində Ulu öndər şəxsiyyətinin miqyasını və əhəmiyyətini təhlil etməyə cəhd göstərilə bilər. Təhlil predmeti qismində, təbii ki, onun xalq qarşısında 30 ildən yuxarı müddətdə göstərdiyi xidmət, ölkənin inkişaf konsepsiyasının müəyyənləşdirilməsi və həyata keçirilməsi, bir sözlə, Azərbaycan tarixinin Heydər Əliyev dövrü çıxış etməlidir. Lakin tariximizin Heydər Əliyevin dövrü anlayışı kifayət qədər tutumlu olduğundan təhlilin anlaşıqlı mahiyyət kəsb etməsi onu konkretləşdirməyi tələb edir. Hər şeydən əvvəl qeyd edilməlidir ki, tariximizin Heydər Əliyev dövrü müasir Azərbaycan cəmiyyətinin formalaşması vəzifələrinin yerinə yetirilməsi ilə seçilir. Bu özünü onda göstərir ki, Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan böyük və sürətli inkişaf mərhələsinə qədəm qoyaraq yeni cəmiyyət parametrləri kəsb etmişdir. Həmin dövrdə ölkənin inkişafı sadəcə prosesin adi axarının təzahürü formasında deyil, bir qayda olaraq, əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan sıçrayış xarakterli yeniləşmə formasında özünü büruzə vermişdir. Ümummilli liderin yaratdığı yeni cəmiyyətin fundamental xüsusiyyəti onun bu dahi şəxsiyyətin timsalında qüdrətli milli - birləşdirici faktora söykənməsində təzahür edir. Ulu öndərin bütün həyatı və fəaliyyəti bir tərəfdən xalqın milli - mənəvi potensialının və resurslarının məcmusu kimi çıxış edirdisə, digər tərəfdən, milli özünüdərk mexanizminin tam mənasında işə salınmasına istiqamətlənmişdir. Bunun sayəsində bu dahi şəxsiyyət daim milli - birləşdirici faktor kimi çıxış etmiş və beləliklə də milli inkişaf prosesini bu qüdrətli fundament üzərində kökləməyə müvəffəq olmuşdur.

Ulu öndər milli-mədəni irslə yanaşı, mənəviyyatın, milli əxlaq və düşüncə modellərinin qorunub saxlanılması üçün də səylərini əsirgəməmişdir. Çağdaş tariximizə möhürünü vurmuş Heydər Əliyev dühası müstəqillik illərində azərbaycançılığın ayrı - ayrı komponentlərini vahid sistem halına gətirərək milli ideologiyaya çevirməklə, cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Milli irs və düşüncə sistemindən qaynaqlanan bu ideya dərin məzmun yükü ilə cəmiyyətin təkamül prosesində, tərəqqisində və monolitliyində aparıcı amilə çevrilməkdən savayı, həm də Ümummilli liderə xalqı öz ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı yaratmışdır. Böyük strateq öz çıxışlarında xüsusi vurğulamışdır ki, yeni dünya nizamının, qarşısıalınmaz qloballaşma prosesinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsini çağdaş zamanın ən aktual məsələlərindən birinə çevirmişdir. Ulu öndərin dühasının Vətəninə, xalqına, milli irs və ənənələrə bağlılığı bu təhdidlər önündə əzəmətli siperə çevrilmiş, bütövlükdə xalqın milli genefondunu qorumuşdur. Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi - mədəni irsə, əxlaqi - mənəvi dəyərlərə müəyyən təhlükə meyilləri də özünü qabarıq göstərir. Şərq - Qərb sivilizasiyasının bir-birinə yaxınlaşdığı, bəzən də gizli və açıq mübarizələrin getdiyi bir zamanda soykökə qayıdışın, milli özünüdərkin böyük əhəmiyyəti vardır. Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiyanın həyata keçirilməsi zərurəti ziyalıların üzərinə böyük məsuliyyət qoyur. Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması xüsusilə aktuallıq kəsb edir. Ümummilli liderin təbirincə desək, "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır".

Ümummilli liderin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz tarixi xidmətlər haqqında təhlil apararkən haqlı olaraq onun müstəqil, azad, suveren Azərbaycan dövlətini qurması faktı birmənalı şəkildə vurğulanır. Bu mənada azərbaycanlıların onu müstəqil Azərbaycan dövlətinin memarı sayması üçün bütün obyektiv əsasların mövcudluğu inkaredilməzdir. Eyni zamanda, müstəqil Azərbaycan dövlətinin Ümummilli liderin şah əsəri olması barədə ictimai düşüncədə özünə artıq möhkəm yer tutmuş tezisin də öz növbəsində tutarlı dəlillərə söykəndiyini sübuta yetirməyə ehtiyac yoxdur. Bir-biri ilə bağlı olan, bəlkə də eyni hadisənin müxtəlif təzahürü kimi dəyərləndirilə bilən bu iki tezis - "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır" və "Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir" tezisləri ictimai düşüncənin sanksiyalaşdırdığı gerçəklik olaraq qavranılır. Xalq qəti əminliklə onun fərqindədir ki, həyatımızı əhatə edən tarixi gerçəkliyin qərar tapması Ulu öndərin fövqəladə xidmətlərinin birbaşa nəticəsidir və bu xidmətlər olmasaydı, Azərbaycanın müasir tarixi tamam başqa qiyafədə meydana çıxmaq zorunda qalardı.

Ulu öndər öz düşüncələrində böyük ustalıqla milli və liberal dəyərlərin uğurlu vəhdətini yarada bilmiş, öz davranışları ilə xalqımıza kənar mədəniyyətlərlə təmas zamanı yabançı həyat tərzlərindən nələri əxz etməyi, nələri götürüb, nələri kənara qoymağı böyük uzaqgörənliklə göstərmişdir. Azərbaycanın qapıları ən ali, bəşəri və universal dəyərlərin üzünə məhz Ulu öndərin əlləri ilə açılsa da, bu qapıdan ictimai həyatımıza daxil olan yeniliklər minilliklər boyu tariximizlə yol gələn, bizi dünya xalqları içərisində tanıdan milli dəyərləri üstələyə bilməmişdir. Ulu öndər bu mənada, həm də xalqın inanclarını, milli dəyərlərini bütün siyasi proseslərin fövqündə saxlayaraq qorumağı bacarmış liderdir.

Ümummilli liderin əsasını qoyduğu, qurduğu müasir Azərbaycanın, müstəqil Azərbaycan dövlətinin tarixinin yeni-yeni səhifələri yazılır-bu tarixin müəllifi də, heç şübhəsiz, Heydər Əliyevdir. Ulu öndərin formalaşdırdığı müasir Azərbaycan bu gün yaşayır, təkmilləşir və bununla da Ümummilli liderin ideyalarının həmişəyaşarlığının təzahürü kimi çıxış edir. Bu dahi şəxsiyyətin Azərbaycan tarixində müstəsna rolu, ümumiyyətlə, onun tarixi missiyası haqqında düşüncələri ümumiləşdirərək vurğulamaq lazımdır ki, müasir, yeni Azərbaycanın qurulması inkişafı onun nəzəri, konseptual əsasını təşkil edən Heydər Əliyev ideyalarının həyatın tələbatından qaynaqlanaraq xalqın istək və arzularına cavab verməsi ilə əlaqədar olduğu kimi, həm də daha çox şəxsiyyət amili ilə əlaqədardır. Bu tezis Azərbaycan cəmiyyətinin mövcud durumunun ortaya qoyduğu ən mühüm həqiqətlərdən biri kimi ictimai düşüncəyə artıq qəti həkk olunmuşdur. Ümummilli liderin müasir Azərbaycanın ideya əsaslarının yaradılmasında və həmin ideyaların uğurla həyata keçirilməsi işində öz üzərinə götürdüyü tarixi missiya təkcə bugünkü həyatımızın gerçəkliyini təşkil edən nailiyyətlərlə tamamlanmır. Əldə olunanların möhtəşəmliyini etiraf və bütün bunların artıq xalqımızın milli sərvətinə çevrildiyini qeyd edərək onu da xüsusi vurğulamağı lazım bilirik ki, Ulu öndərin tarixi missiyasının mahiyyəti daha çox gələcək perspektivlər və inkişaf meyllərində ifadə olunur.

Ulu öndər yaxşı bilirdi ki, sabahkı uğurlara yeganə təminat sağlam cəmiyyət quruculuğuna diqqəti artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır. Bu böyük şəxsiyyət mədəniyyəti xalqın tükənməz sərvəti hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğuları ilə yanaşan Ulu öndər deyirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". Milli dəyərlərimizə dərindən bələd olan Ümummilli lider xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq azərbaycançılıq ideologiyasına sadiqliyi, xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi: "Bizim hamımızın bir Vətəni var - bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".

Bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsindəki qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli-mənəvi dəyərləridir. Bu səbəbdən də hər şeydən əvvəl və hər sahədə, o cümlədən mədəniyyət siyasəti sahəsində mədəniyyətin təsbiti mövzusuna üstünlük verilməlidir. Milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Şübhəsiz ki, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Bu məqsədlə müasir mədəniyyət siyasətində yaradıcı və qurucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətlərinə mühüm əhəmiyyət verilməlidir. Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır, çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Milli dəyərlərimizə, adət-ənənələrimizə biganə münasibət gələcəyimiz üçün yaxşı heç nə vəd etmir. Tarixdən məlumdur ki, öz soykökünə, tarixinə, milli dəyərlərinə, inanclarına dönük çıxan millətlər və dövlətlər müəyyən zaman kəsiyində "əriyib" yox olmuş və tarix səhnəsindən birdəfəlik silinmişlər. Hər hansı bir xalqı, dövləti məhv etmək üçün onu milli dəyərlərindən ayırmaq kifayətdir. Müasir dünya siyasətində qlobal, regional və lokal problemlərin, qloballaşma və mədəni inteqrasiya məsələlərinin həllinə yeni münasibət müşahidə edilməkdədir. Demokratiyanın siyasi sistem kimi formalaşdırılmasını tələb edən bu prosesdə Azərbaycan Respublikası da fəal iştirak etməkdədir. Lakin hər zaman diqqətə alınmalıdır ki, yalnız milli və bəşəri dəyərlərin sintezi və dunya təcrübəsi yonunda həyata kecirilən islahatlar sayəsində dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə catmaq mümkündür.

Ardı Səh. 13

Əvvəli Səh. 12

# Milli-mənəvi dünyamızın talismanı...

Sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin, dünyanın inkişaf təcrübəsinin öyrənilməsini, kompleks əlaqələrinin genişləndirilməsini zərurətə çevirir ki, bütün bunlara da yalnız mükəmməl mədəniyyət siyasəti sayəsində nail olmaq mümkündür. Bu gün Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınmasına, müstəqilliyinin möhkəmlənməsinə dair bir sıra tədbirlər həyata kecirilir, təhsil və mədəniyyətin inkişafı üçün zəruri qərarlar qəbul edilir, dövlət aparatının, təhsil və mədəniyyət institutlarının Avropa standartlarına uyğun şəkildə qurulması istiqamətində səylər gostərilir. Milli-mədəni, intellektual qüvvələr öz fəaliyyətləri ilə dövlətin mədəniyyət sahəsindəki siyasətinin müasir durumunu təhlil edir və bu siyasətin perspektivlərinə aydınlıq gətirməyə calışırlar.

Milli dəyərlərimizin qorunması və inkişafı Ulu öndərin adı ilə bağlıdır-milli dəyərlərimizə, soykökümüzə qayıdışın, milli hisslərimizin oyanışının xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu sahəni diqqət mərkəzində saxlayan Ümummilli liderin Azərbaycana rəhbərliyinin birinci dövründə xalqımızın milli oyanışının əsası qoyulmuşdur. Azərbaycanda Sovet hakimiyyətinin elan edilməsindən sonra milli dəyərlərimiz, adət-ənənələrimiz keçmişin qalığı kimi qiymətləndirilərək yasaq olunmuşdu. Milli dəyərlərimiz haqqında düşünənlər, milli ruhu və dəyərləri qoruyub saxlamaq istəyən ziyalılar xalq düşməni adı altında məhv edilmişdir. Tariximizi təhrif edərək xalqımızı öz soykökündən ayırmağa çalışmışlar. Ulu öndər dilimizə, tariximizə, mədəniyyətimizə, musiqimizə, ədəbiyyatımıza dövlətçilik mənafeləri baxımından yanaşmışdır. Ümumiyyətlə, Ulu öndərin respublikaya rəhbərliyinin birinci dövründə məqsəd və məramı Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirməklə, xalqın milli dirçəlişi, milli şüurunun oyanışı ilə müstəqil dövlətimizi yaratmaq olmuşdur.

Ulu öndər sovet dövründə olduğu kimi, Azərbaycanın müstəqilliyi illərində də milli dəyərlərimizə sahib çıxmışdır. Xalqımızın milli dəyərlərinin, adətənənələrinin təbliği, tarixi - memarlıq abidələrinin bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi dahi şəxsiyyətin milli dəyərlərə sədaqətinin göstəricisidir. Milli bayramımız olan Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsi də milli dəyərlərimizin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasındadır-Novruz bayramının təntənəli şəkildə keçirilməsi milli dəyərlərin qorunması, milli yaddaşın bərpası baxımından çox mühüm əhəmiyyət daşıyırdı.

Mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Bu mənada Azərbaycan dövləti öz daxili və xarici siyasətini yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə istinad edərək həyata kecirir. Milli dəyərlər deyəndə milli ideologiya, milli tarix, milli dil, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, folklorumuz-başa düşülür-bura həm də bizim yaddaşımız - fərd yaddaşı, etnos yaddaşı, millət, xalq yaddaşı daxildir. Bir sözlə, milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sisteminə aiddir. Müstəqilliyimizin əldə olunmasından sonra həyata keçirilən mədəniyyət siyasəti milli - mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaradır. Xalqımızın əldə etdiyi bu böyük nailiyyət, milli sərvətimiz olan mənəvi dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir. Azərbaycan xalqı azad və süveren dövlət quraraq, mədəni-iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik olkələrin təcrubələrindən istifadə edir. Ümumiyyətlə hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı da bugünədək məhz milli mənəvi dəyərlərinə bağlılığı sayəsində özünün mövcudluğunu, milli identikliyini, özünəməxsusluğunu qoruyub saxlaya bilmişdir. Azərbaycan xalqının ən böyük sərvətlərindən biri onun zəngin milli mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılmış və onun böyük bir hissəsi bugünədək qorunub saxlanılmışdır. Bu baxımdan, milli dövlətin formalaşması və əbədiyaşar olması onun mənəvi əsaslarının milli dəyərlərlə nə dərəcədə səsləşməsindən asılıdır. Ulu öndərin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Ulu öndərimiz milli dəyərlərin üç tərkib hissəsini xüsusi qeyd edir, dil, adət - ənənə və milli mentalitetin rolunu xüsusi qiymətləndirirdi-o milli dəyərlərimizin öyrənilməsini, qorunub-saxlanılmasını, inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür və deyirdi ki, bunları qoruyub-saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyini qorumaq əzmində olacaqdır-çünki milli dövlətçilik və milli dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Ulu öndər deyirdi ki, milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən də milli dəyərlərin qorunmasının və müstəqil inkişafının təmin olunması məqsədi daşıyır. Dövlətciliyin təməlinin, milli varlığın özülünün, əsasının mədəniyyətə bağlı olduğunu aydın dərk edən görkəmli siyasət və mədəniyyət xadimi, Ümummilli lider rəhbərlik etdiyi bütün illərdə milli - mənəvi dəyərlərimizə həmişə qaygı ilə yanaşmış və bununla bağlı bəyanatlarla çıxış etmiş, qanunlar imzalamışdır. O, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi ruhda tərbiyələndirirməyin dövlətimiz, xalqımız qarşısında ən zəruri, həlli qaçılmaz vəzifələr olduğunu 13 avqust 2001-ci il tarixli bəyanatında da söyləmişdir: "Hər xalqın öz adət - ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adətənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Milli dəyərlərə söykənən dövlət quruculuğu xalqın milli şüuruna, identikliyinə, mənəvi dəyərlərinə istinad edir-Azərbaycan Prezidenti andiçmə mərasimində əlini Qurani-Kərimə basaraq milli mənəvi dəyərlərimizi qoruyacağına and içir-bu fakt dövlətimizin millimənəvi dəyərlərimizə, ənənələrimizə verdiyi önəmin göstəricisidir. Hər bir məsələdə Ulu öndərin ideyalarına əsaslanan Azərbaycan Prezidenti İlham Əliyevin milli mədəniyyətin və mənəvi dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti də bu baxımdan çağdaş dövrün bir sıra reallıqları ilə şərtlənir. Cənab İlham Əliyevin milli ideologiya və milli-mənəvi dəyərlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir-onun bu sahədəki xidmətləri yalnız xalqın milli dəyərlərinə - mədəniyyətinə, ədəbiyyatına, folkloruna, incəsənətinə yüksək qayğı, diqqət nümunəsi kimi dəyərləndirilməlidir. Görülən bu işlər, sadəcə, qayğı və diqqət nümunəsi olmaqla məhdudlaşa bilməz-bütün bunlar qədimlərdən bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq və türkçülük məfkurəsinin, əxlaqının, baxışlar sisteminin bütün dünyada təbliği, qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir. Prezident İlham Əliyev daim vurğulayır ki, milli ideologiyamızın əsas tərkib hissələrindən biri olan azərbaycançılıq ideologiyası həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda, bir sözlə, mənəvi mədəniyyətin bütün sahələrində istiqamətləndirici məfkurə olmalıdır. Əsrlərdən miras qalmış mütərəqqi mənəvi dəyərlər Azərbaycan xalqının milli mövcudluğunun və dövlətçiliyinin qarantına çevrilməlidir.

Düşüncə sisteminin milli xarakteri, etnik müxtəlifliyi yetkin insan şüurunun formalaşdığı dövrdən mövcud olmuş, bəşəriyyətin uzun tarixi inkişafı ərzində məhz bu tipoloji xarakterik xüsusiyyət əsasında inkişaf etmiş, habelə ayrıayrı millətlərin özünəməxsusluğunu şərtləndirən dəyərlərin formalaşmasında mühüm rol oynamışdır. Daha çox milli-mənəvi dəyər məfhumunda ehtiva olunan bu özünəməxsusluq tarixən milli həyatın maddi və mənəvi zənginliyinə əsaslanmaqla, xalqları bir-birindən fərqləndirmişdir. Əsrlər boyu milli cəmiyyətin sosial nizamını qoruyub saxlayan, fərdlərarası münasibətləri nizamlayan, cəmiyyətin üzləşdiyi ən müxtəlif problemlərin həllində açar rolunu oynayan milli-mənəvi dəyərlər həm də sərt sınaqlardan çıxaraq cilalanmış, möhkəmlənmişdir. Bəşəriyyətin tarixi təkamül prosesi göstərir ki, hər hansı xalqın milli-mənəvi irsini, mental-əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Nəcib əməllər sahibi olan belə insanlar həmişə saf və ali məqsədlər uğrunda mübarizənin önündə dayanmış, əlverişli siyasi şansdan böyük məharətlə, ustalıqda bəhrələnmiş, xalqın düşüncə sistemini, mental xüsusiyyətlərini istənilən ictimai-iqtisadi formasiyada hifz edərək möhkəm mənəvi təməl üzərində gələcəyə doğru inamla addımlamışlar.

Prezident İlham Əliyevin elmin, təhsilin, mədəniyyətin inkişafını sürətləndirən onlarla fərman və sərəncamlar, dövlət proqramları imzalaması onun yetişməkdə olan gənc nəslin mənəvi bütövlüyü, kamilliyi və saflığı, habelə qlobal miqyaslı yad təsirlərə qarşı mənəvi müqavimətin təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi siyasətin mühüm məqamlarıdır. Bütün bunlar, eyni zamanda mənəvi yüksəlişə, intibaha xidmət edən mühüm addımlar kimi cəmiyyətin pozitiv ruhda inkişafına təkan vermişdir. Xüsusi vurğulamaq lazımdır ki, ölkədə klassik irs və millimənəvi dəyərlərin qorunması, təbliği istiqamətində həyata keçirilən tədbirlərdə ictimai əsaslarla fəaliyyət göstərən Heydər Əliyev Fondunun da müstəsna rolu var. Fondun təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt də məhz milli genefondun, milli-mənəvi irsin qorunması məqsədidir. Bütün bunlar göstərir ki, Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi məqsədyönlü siyasətin qayəsində xalqın milli-mənəvi, mədəni və elmi-intellektual potensialının gücləndirilməsi məqsədi ön planda dayanır. Dövlət başçısının müasir azərbaycanlı təfəkküründə Vətən və xalq təəssübkeşliyi, Şərqin pozitiv ənənəçilik meyilləri, türk mənəvi-əxlaqi dəyərləri, habelə Qərb və Avropanın liberal ideyaları üzvi vəhdət təşkil edir. Azərbaycan Prezidenti mədəni, elmi, etno - kulturoloji, habelə yaradıcılıq sahələrində irəliləyişi, mənəviyyat məsələlərinə dövlət himayəsini iqtisadi- sosial tərəqqi ilə ayrılmaz şəkildə bağlayır. Bu, dünyanın ümumi həyatının rəhnidir və hər bir millətin gələcəyində, dövlətin qabaqcıl ölkələrlə eyni hüquqi səviyyədə yaşayıb inkişaf etməsində həlledici amildir.

# Nurəddin Məmmədli sürüyə qoşulmaqdan imtina edir

Elməsəlidir, ”Utanmasan oynamağa nə var ki”. Haqlı və əsaslı məsəldir, məhz bu günümüz üçün deyilib. Daha doğrusu, dağıdıcı müxalifət düşərgəsində təmsil olunan funksionerlərin əndərəbadi paylaşımları, gülüş doğuran açıqlamaları qeyd olunan məsəllə uyğunluq təşkil edir. Ona görə ki, bu məxluqların özləri kifayət qədər qüsurlu və günahkar olduqları halda, başqalarını qınayırlar. AXCP sədri Əli Kərimli, ”Milli Şura”nın sədri Cəmil Həsənli, AXCP sədr müavinləri Fuad Qəhrəmanlı, Seymur Həzi, ”Milli Şura”nın üzvü Tofiq Yaqublu elə şirin yalanlar uydurub, elə uydurulmuş böhtanlar səsləndirirlər ki, sanki bunlar aydan arı, sudan durudurlar.



### Nurəddin Məmmədli sürüyə qoşulmadığını göstərməyə çalışır

Ə.Kərimli sosial şəbəkələrdə paylaşdığı statuslarında gah deyir ki, filan cəbhəçi qanunsuz olaraq həbs olunub, gah da iddia edir ki, Qarabağdakı rus sülhməramlılar Qarabağda problemlər yaradacaqlar. Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Seymur Həzi, Tofiq Yaqublu və digərləri də eyni ilə Ə.Kərimli kimi cəfəng, əhəmiyyətsiz fikirlərlə çıxış edirlər. Onların eyni mövqedən çıxış edib, eyni tezisi səsləndirmələri anlaşılandır. Nədən ki, eyni mərkəzdən idarə olunurlar. Tezislər ümumi şəkildə təqdim olunur. Bu baxımdan, hamısı eyni fikri və mövqeyi ifadə edirlər. Deyək ki, Ə.Kərimli statusunda yazırsa ki, ADR sədri Qubad İbadoğlu haqsız yerə həbs olunub və filan-filan senatorlar, konqresmenlər onun müdafiəsinə qalxıblar, Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Seymur Həzi, Tofiq Yaqublu və digərləri də sözbəsöz həmin fikirləri yayımlayırlar. Onların arasında yalnız özünü bir neçə ölkənin professoru kimi təqdim edən AXCP Ali Məclisinin sədri Nurəddin Məmmədlidir ki, sürüyə qoşulmadığını göstərməyə çalışır. Sadəcə, aradabir Ə.Kərimlinin mənasız statuslarını layk etməklə işini bitmiş hesab edir.

### Nurəddin Məmmədli tənha gəzməyə üstünlük verir

Dağıdıcı müxalifət düşərgəsində fərqli düşünmək və mərkəzdən verilən tapşırıqdan kənar addımlar atmaq və fikirlər söyləmək yolverilməzdir. Bu cəsarət nümunəsini göstərməyə çalışanlar ən ağır cəzaya məhkum olunurlar. Xüsusilə də, həmin cəsarət nümunəsi göstərən şəxsin təmsil olunduğu partiyaya xaricdən verilən maliyyə vəsaitlərinin dayandırılması məsələsinə baxıla bilər. Ən yaxşı halda maliyyə vəsaitinin azaldılması baş verər. Sanksiya cızıqdan kənara çıxan şəxsin partiya sıralarından xaric edilməsinə qədər davam edər ki, bunu da heç bir partiya və ya şəxslər arzu etmir. Məhz AXCP funksionerləri Aydın Əliyev və Sahib Kərimli Əli Kərimlinin təqdim etdiyi tezisdən kənara çıxdıqlarına görə, partiya sıralarından xaric edilməklə cəzalandırıldılar. Ona görə də bu məsələdə düşərgə daxilində nizam-intizam qaydaları güclüdür. Hər kəs gözlərini dikib AXCP sədri Ə.Kərimliyə. O nə desə və ya sosial şəbəkələrdə yazsa, təkrarlayırlar. Qeyd etdiyimiz kimi, müstəqillik nümunəsini yalnız AXCP Ali Məclisinin sədri Nurəddin Məmmədli göstərir. Onun da bir neçə səbəbi var. Birincisi, qocadır, 70 yaşını adlayıb. İkincisi, pul ayıran qüvvələr N.Məmmədlini bir o qədər də ciddi şəxs hesab etmirlər. Üçüncüsü, N.Məmmədli yeganə troldur ki, Ə.Kərimlinin himayəsi altındadır. Yəni, Ə.Kərimli bütün hallarda onu müdafiə edir. Necə ki, AXCP üzvləri N.Məmmədlinin yenidən Ali Məclisin sədri seçilməsinə qarşı çıxsalar da, Ə.Kərimli onu məclis sədri təyin etdi. Bununla da, N.Məmmədlinin toxunulmaz trol olduğunu göstərdi. Bu baxımdan, N.Məmmədli sosial şəbəkələrdə ağlına deyil ağzına gələnləri yazır və ya açıqlamalarında sərsəm fikirlərə yer ayırır. Misal üçün, N.Məmmədli sosial şəbəkədə ”Dağıl, a dünya” adlı bir paylaşım edib. Paylaşımında dəxli olmayan fikirləri sayıqlayan bir neçə ölkənin ağır çəkili professoru daha sonra yazır: ”Öz gözündə tiri görməyib başqalarının gözündə tük axtaranlar üçün: Milli Məclis Fransalı korsikalıların hüquq və azadlıqlarını qorumaq üçün mübarizə qrupu yaradıb”.

Açığı anlamaq olmur, bu məxluq nə demək istəyir? Bilmək də olmur korsikalıların hüquq və azadlıqlarını qorumaq üçün mübarizə qrupunun yaradılmasından narazıdır, yoxsa məmnundur? Narazıdırsa, başa salmaq lazımdır ki, Fransanın müstəmləkəsində olan bir xalqın azadlıq mübarizəsinə dəstək vermək niyə qəbahət olmalıdır ki? Sevinirsə ki, belə bir qrup yaradılır, nədən açıq mətnlə mövqeyini ifadə etmir? Bir sözlə, ziddiyyətli və tapmacadan ibarət status. Görünür, N.Məmmədli statusu yazarkən ağır depressiya vəziyyətində olub və bu baxımdan da, qarışıq fikirlərlə özü-özünü dolaşdırıb.

**İ.ƏLİYEV**

# Parisin İrəvana ”bacılıq” sindromu: Cənubi Qafqazda ”Afrika siyasəti”?

## "Kremlyovskaya praçka" teleqram kanalı: "Biz, Ermənistandakı Nikol Paşinyan rejimi kimi "müttəfiqlərlə" münasibətdə daim hazır olmağa məhkumuq"



Rusiyanın 300 minə yaxın izləyicisi olan nüfuzlu ”Kremlyovskaya praçka” teleqram kanalı son vaxtlar Ermənistanda artan anti-Rusiya siyasəti, eləcə də Fransanın Ermənistan vasitəsi ilə regiona soxulma cəhdləri barədə analitik şərhlə çıxış edib. Xüsusilə, Fransanın Ermənistanı silahlandırması cəhdlərinin realizəsi fonunda Parisin bu dəfə Cənubi Qafqaz fonundakı ”Afrika siyasəti” hədəfə alınıb. Ümumiyyətlə, neokoloniolizm faktorunun Fransa üçün hansı nəticələrə gətirib-çıxaracağını qeyd edən teleqram kanalı bu məsələdə Ermənistanın bütövlükdə məhvolma ssenarisini də istisna etməyib. Bütövlükdə isə Ermənistanın Rusiyaya qarşı xəyanətkar mövqeyi məqalənin əsas suburktinə çevrilib. Məhz bu baxımdan, məqalənin regionumuza həsr olunmasını nəzərə alaraq oradakı bir neçə diqqətçəkən məqamları diqqətinizə çatdırırıq.

Beləliklə, Fransanın Cənubi Qafqaza daxil olması üçün Ermənistan kartından yararlanması faktorlarına toxunan adıçəkilən kanalın yazdığına görə, Fransa məhz bu vasitə ilə Rusiyanın tarixi və strateji maraqları olan regionda əlavə gərginlik yaratmağa çalışır. SİTAT: ”Ermənistan formal olaraq KTMT-ni sona qədər tərk etməyə imkan tapmamış özünə yeni himayədar tapıb, halbuki İrəvanı Rusiya ilə müttəfiqlikdən heç kim çıxarmayıb. Seçim aşkardır - Fransa”.



### ”Yaşlı qadınları sevən və gecə zəngləri aludəçisi olan Makron paşinyançı rejimə şəxsi simpatiyasını gizlətmir”

Qeyd olunur ki, Fransada spekulyasiya kapitalına malik ənənəvi erməni diasporu öz işini görür. SİTAT: ”Yaşlı qadınları sevən və gecə zəngləri aludəçisi olan ölkənin hazırkı lideri Emmanuel Makron paşinyançı rejimə şəxsi simpatiyasını gizlətmir. Avropa İttifaqı hər halda Ermənistana, Azərbaycanla sərhədə yeni və daimi müşahidəçi missiyasını göndərdi... Amma Qərb kəşfiyyatının iştahaları hələ indi-indi artmağa başlayır. Psevdodemokratik strukturların nə olduğu da məlumdur. Onlar xüsusi xidmət orqanlarına davamlı informasiyalar ötürənlər, hətta təxribatçılardır...”

### ”Əvvəlki himayədarların, həm də xilaskarların (Rusiyanın) fikirləri Paşinyana maraqlı deyil”

Eyni zamanda, ”Kremlovskaya praçka” iddia edir ki, hələlik, Ermənistandakı avropalı ”analitiklərin” və mütəxəssis-kollaborasionistlərin sayları artmaqda davam edir və bu özəyin əsasını fransalılar təşkil edir. Ümumilikdə isə o da bildirilir ki, missiyanın rəsmi hədəfi ”sərhədlərdəki gərginliyi azaltmaqdır”, ancaq əsl hədəf Cənubi Qafqazda möhkəmlənmək marağıdır. Teleqram kanalı bu kontekstdə yazır: ”Bizim XİN (Rusiya) bağırmaqdan yoruldu ki, sərhəd münaqişələrinin qarşısını yalnız sərhədlərin delimitasiyası və demarkasiyası sayəsində almaq olar, Moskva tərəflərə bu məsələdə istənilən dəstəyi göstərməyə hazırdır. Ancaq əvvəlki himayədarların, həm də xilaskarların (Rusiyanın) fikirləri Paşinyana maraqlı deyil”.

### ”Missiyanı fransız diplomatlar idarə edir ki... ”

Daha sonra qeyd olunur ki, əslində, Ermənistandakı monitorinq missiyasını Makronun bir müddət əvvəlki bəyanatından sonra ortaya atmışdılar. Makron isə həmin ərəfələrdə iddia edirdi ki, məhz Rusiya Cənubi Qafqazda destabillik yaradır. O da xatırladılır ki, hələ Praqada - Azərbaycan Prezidentinin, Ermənistanın baş nazirinin və Aİ sədrinin üçtərəfli görüşündə Paşinyanın təkidi ilə fransız prezidentini də dəvət etdilər və beləliklə, Aİ-nin müşahidəçi missiyası mövzusu ortaya atılmış oldu.





SİTAT: ”Fransız diplomatiyasının başçısı Katrin Kolonna açıq, lakin apellyasiyasız şəkildə bəyan etdi ki, ”missiya Azərbaycan-Ermənistan sərhədlərindəki eskalasiya riskini azaltdı. Missiyanı fransız diplomatlar idarə edir ki, onlar Nikol Paşinyanla bir-iki dəfə görüşmək imkanı əldə etmişdi. Həmin Paşinyanla ki, buna qədər KTMT-nin Ermənistanda keçirilməli olan təlimlərində iştirakdan rəsmən imtina etmişdi və eyni zamanda bildirmişdi ki, Rusiya sülhməramlıları müdafiəçi deyillər, təhlükə yaradandırlar. Hər şey Parisin Kiyev hakimiyyətinə fəal dəstəyi fonunda baş verir. Məhz fransızlar ukraynalılara ilk olaraq zirehli texnikalar göndərməyə başlamışdılar”.

### ”Hər halda Napoleonun həyatını necə başa vurduğunu da unutmamaq lazımdır”

Beləliklə, ”Kremlyovskaya praçka” ona da işarə edir ki, əslində, Fransa bu kimi vasitələrlə və astaca Cənubi Qafqazda ”ikinci cəbhə” açmağa cəhdlər göstərir: ”Yeri gəlmişkən, birinci dəfə deyil. Napoleon da Cənubi Qafqazda Rusiyaya qarşı ikinci cəbhə açaraq İranda möhkəmlənməyə cəhd edirdi. Həmin vaxtlarda fransızlar öz hərbi məsləhətçilərini axın-axın oraya göndərməklə Rusiya ilə müharibə aparmalarına nail olmuşdu. İndi isə Fransa xəyal edir ki, uzaqgörən olmayan, amma hakimiyyəti sevən Paşinyan vasitəsi ilə Gümrüdəki rus hərbi bazasını yığışdıracaq, yəni ölkəmizi ümumiyyətlə, Cənubi Qafqazdan çıxaracaq. Hər halda Napoleonun həyatını necə başa vurduğunu da unutmamaq lazımdır”.

***Afət Tahirqızı***

# Hazır qidalar ölümü tezləşdirir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb*

Yenilənən, ”refresh” olan dünyanın qidalanma tərzində də böyük dəyişikliklər oldu. Ev yeməkləri hazır yeməklərlə əvəz olundu və ənənəvi yeməklərin yerini qlobal miqyasda ”fast-food” zəbt etdi. Bu vəziyyət daha çox işləyən insanlar, tələbələr, hətta evdə yemək bişirməyi sevməyən insanlar üçün gördəndüşmə oldu. Əvvəl dolmanın, düşbərənin, soyulmuş kartofun hazır qida kimi satılmasına təəccüb edirdik, indi normal qəbul edirik. Əslində, nə qədər normal olmayan vəziyyəti zamanla normal kimi qəbul etmişik fərqində olmadan...



### Hər gün 2000 növ qatqı maddəsi qəbul edirik

Qablaşdırılmış qidalarla bağlı ən böyük mübahisə sağlamlığa bir təhlükəsinin olub-olmaması ilə bağlıdır. Bu qidalar çox vaxt maddələr mübadiləsinə, immun sistemimizə və genetikamıza ciddi təsir göstərir. Bir qisim bu qidaların son dərəcə sağlam olduğunu düşünür, digər tərəf isə onların tərkibinə qatılan konservantların son dərəcə zərərli olduğu qənaətindədir. İstehlak edəcəyimiz hər bir hazır məhsulun qablaşdırılması diqqətlə araşdırılmalıdır. Qablaşdırmanın açılmaması, köhnəlməməsi və deşilməməsi çox vacibdir, əks halda çox ciddi zəhərlənmə halı - botulizm baş verər ki, əksər hallarda nəticəsi ölüm olur.

Qida sənayesində hər il minlərlə məhsulun tərkibində olduqca çox çeşiddə qatqı maddəsi istifadə olunur. Hal-hazırda insanlar hazır qidalar vasitəsi ilə gündə təxminən 2000 növ kimyəvi qatqı qəbul edirlər. Dadlandırıcılar, ətirləndiricilər, qatılaşdırıcılar, ağardıcılar, rəng qoruyucuları, köhnəlmə əleyhinə maddələr, nəmləndiricilər, boyalar, aromatlar və s. Yəni yediyimiz hər hazır qidanın tərkibində saysız-hesabsız qida əlavəsi var deyə bilərik.

Qida sənayesi, məhsulların qablaşdırılmasında istifadə olunan bu əlavələri məhsulun üzərində göstərməlidir. Ancaq buna nə qədər əməl edilir, burası mübahisəlidir. Gəlin, ən sadə misal çəkək - saqqız. Kiçik bir məhsulun tərkibində nələr var, sayaq. Ən birinci dadlandırıcılar - şəkər xəstəlinə meyillilik yaradır, beyin fəaliyyətini pozur, baş ağrısı, başgicəllənmə və huşunu itirməyə, dodaqlarda, dildə və ayaqlarda şişməyə səbəb olur. ”Aspartam” dediyimiz maddənin tərkibində ”fenilalanin” adlı bir amin turşusu var. Bu, uşaqlarımızın inkişaf edən reproduktiv orqanlarına və beyinlərinə zərər verir. Bununla belə, sonsuzluq və əqli gerilik də yaradır. Aromat üçün vurulan maddələr də var ki, nanotexnologiya və gen texnologiyası ilə istehsal edilən bu aromatlar bədən-ruh balansı ilə yanaşı hormonal tarazlığa da təsir göstərir. Nəmləndirici - qliserinlər isə qəssabxana tullantılarından əldə edilir. Qısası, 2,5 qramlıq saqqızda 18 qatqı maddəsi var.

Kiçik, sadə bir saqqızın tərkibində bu qədər zərərli qatqı varsa digər məhsulları da təsəvvür etmək çətin deyil. Bəzən istehsalçılar qida əlavələrinin tərkibində zərərsiz və hətta faydalı maddələr olduğunu deyirlər. Bu gün qatqı maddələrinin müxtəlif üsul və texnologiyalarla istehsal olunduğunu nəzərə alsaq, onların istehsal üsullarının, kimyəvi tərkibinin o qədər də etibarlı olmadığı göz qabağındadır. Məsələn, ”karoten” A vitamininin təbii mənbəyidir. Təbii bitki piqmentlərindən əldə edilməlidir. ”Betanin” qırmızı çuğundurdan alınır. 25-30 il əvvəl təbii bitkilərdən əldə edilən bunların hər ikisini etibarlı hesab etmək olardı, amma o zamanlar üçün. Lakin zaman keçdikcə yeni üsul və texnologiyadan istifadə edildikdən sonra bu əlavələr əsasən GMO bitkilərdən daha ucuz yollarla istehsal olunur. Hətta qablaşdırmanın üstündə inqrediyentlər qeyd olunsa belə, məhsulda istifadə olunan faktiki əlavələri adi üsullarla öyrənmək mümkün deyil. Biz ”betanin”in hələ də çuğundurdan əldə edildiyini düşünərək nə qədər saf olduğumuzu sübut edirik əslində...

### Qida əlavələri nədir?

Gün ərzində diqqət etmədən istehlak edilən qidalarda ən çox rast gəlinən qida əlavələrini araşdırsaq ən çox ”Bisfenol-A” maddəsinə rast gələrik. Qida sənayesində məhsulların xarab olmasının qarşısını alan ən məşhur əlavədir. Estrogen hormonu kimi təsiri olan bu qatqı bədənimizdə qidaların estrogen nisbətinin artmasına səbəb olur. Bu səbəbdən trombosit istehsalı azalır və orqanizmdə endometrioza səbəb olur. Bu uşaqlığın daxili xəstəliyidir və müalicəsi çox çətindir.

Nitrat-nitrit bu gün emal edilmiş ət məhsullarında ən çox istifadə edilən əlavədir. Bu iki əlavə qoruyucu, rəngləndirici və ləzzət artırıcı kimi istifadə olunur. Natrium Nitrit xüsusilə ölkəmizdə nitrat-nitritdən sonra ən çox istifadə edilən qatqı növüdür. Kolbasa, sosiska kimi emal edilmiş ətlərdə istifadə olunur. Bu məhsullar vasitəsilə istehlak etdiyimiz nitrit orqanizmdə kanserogen maddələr olan nitrozaminləri əmələ gətirir. Nitrozamin bədənimizdə mutasiyalara və xərçəngə səbəb olur.

Natrium sulfitdən qida sənayesində rəng və konsistensiya qoruyucusu, həmçinin xarab olan məhsulların ağardıcı vasitəsi kimi istifadə olunur. Şirniyyat, pendir, saqqız, dondurma, portağallı içkilər, meyvə şirələri və peçenye kimi bişmiş məhsullarda da rast gəlinən bu maddə yaddaş pozğunluğuna səbəb olur.

Bu arada, natrium sulfit və natrium nitrit xüsusilə, hamilə qadınlar və uşaqlar üçün təhlükəlidir.

GMO buğdadan və GMO qarğıdalıdan istehsal edilən karamellərdə rəngləndiricilər və dadlandırıcılar var. Xərçəngə səbəb ola bilən bu qatqılar konservləşdirilmiş qidalar, hamburgerlər, tortlar, peçenye və qənnadı məmulatları kimi bir çox məhsulda olur. Titan dioksid də ən təhlükəli qida əlavələrindən biridir. Alüminiumdan əldə edilən bu qatqı bəzi şirniyyatlarda nəmləndirici və rəngləndirici kimi istifadə olunur. Zəhərli və ya allergen maddələrə qarşı həssaslığa səbəb ola bilər. Dünyanın bir çox ölkəsində qadağan olunmuş maddədir.

Aspartam saqqız, ketçup, sous, şokolad, qazlı içkilər, dərman və pəhriz qidaları kimi məhsullarda istifadə olunur. Tərkibində fenilalanin adlı sintetik amin turşusu var. Bu maddə fenilalaninin qanda və toxumalarda toplanmasına səbəb olur. Uşaqların inkişafında beyin zədələnməsinə səbəb ola bilər. Göz qapaqlarında, dodaqlarda və əllərdə şişməyə səbəb ola bilər.

Monosodium qlutamat adlı qida əlavəsi ləzzət artırıcıdır. Bir çox fabriklərdə, restoranlarda və kafelərdə dad artırıcı kimi istifadə olunur. Çin, yapon və türk mətbəxində çox istifadə olunur. Astma xəstələrində baş ağrıları, ishal, ürək sıxılmaları və şiddətli astma krizlərinə səbəb olduğu məlumdur.

Formaldehid adlı qatqı hazır məhsulların xarab olmasının qarşısını almaq üçün istifadə olunur. Formaldehid kimya sənayesində ən çox istifadə edilən maddələrdən biridir. Tekstil, xalça, boya, rezin, mebel və buna bənzər bir çox məişət məhsullarında istifadə olunur. Ümumiyyətlə, qida əlavələrinin tez-tez istifadə edildiyi hazır qidalar sağalmaz xəstəliklərin yaranmasına səbəb olur. Bunlardan bəziləri həzmsizlik, böyrək və böyrəküstü vəzi xəstəlikləri, reproduktiv orqan pozğunluqları, sonsuzluq, kistalar, xərçəng, diabet, tiroid, davranış pozğunluqları, başgicəllənmə, autizm, depressiya, alzeymer kimi bir çox nevroloji və ruhi xəstəliklərdir.

### Soyuqdan istiyə - istidən soyuğa



Qablaşdırmanın üzərindəki son istifadə tarixi araşdırılmalı və qidanın istehlak ediləcəyi müddətə ən uyğun olan məhsul seçilməlidir. Xüsusilə qeyd etmək vacibdir ki, dondurulmuş qida məhsulları soyuq zəncirdən ayrılmamalıdır. Yəni əgər bu məhsul mağazada soyuducuda mühavizə edilirsə alınan kimi ən qısa müddətdə istehlak edilməli, yaxud temperaturu dəyişmədən təkrar soyuducuya qoyulmalıdır. Unudulmamalıdır ki, hər bir qida öz xüsusi qorunma sahəsində olmalıdır.

Hazır qidaların zərərli olmasının ən böyük səbəbi tərkibində olan konservantlardır. Konservantlar ilk baxışda təhlükəsiz görünsə də, bəzi hallarda olduqca zərərli ola bilər. Eyni zamanda, hazır qidaların təhlükəsi onların tez xarab olmasıdır. Hazır qidalar uzun ömürlü olduğunu iddia etsə də, bəzi hallarda normaldan daha tez xarab ola bilər. Bu vəziyyətlərdən birincisi yanlış saxlama şəraitidir. Demək olar ki, hər bir qida məhsulunun üzərində düzgün saxlama şərtləri qeyd olunsa da, bəzi hallarda buna əməl edilmir.

### Hazır qida yerinə ekoloji ev məhsulları

Hazır qidaların elmi cəhətdən sübut edilmiş bəzi zərərləri var. Çox uzun müddət, tez-tez istehlak edilən hazır qidaların tərkibində olan konservantlar xərçəng riskini artırır. Ürək tutmalarına səbəb olmaqla yanaşı, damar xəstəliklərinə də yol açır. Xüsusilə şəkərli diabeti olan və ya diabetə meyilli insanlar üçün hazır qidalar təhlükəlidir. Tərkibində çox boya və konservantlar olan qidalar son dərəcə risklidir. Bu kimi bir çox səbəblərə görə bir çox insanlar hazır qidalardan maksimum imtina etməlidir. Əvəzində ev konservləri hazırlana bilər, bunun üçün o qədər də çox olmayan vaxt və hazır qidalaya xərclənən vəsaitdən qat-qat az vəsait tələb olunur.

Məsələn, şahidi olmusunuz, mağazalarda turşuların satıldığı bölmə həmişə bol müştərili olur. İnsan niyə turşunu marketdən alsın ki? Bir kələmi, 1 kilo yerkökünü, 2 ədəd çuğunduru 1 ovuc duzla ovsanız 1 həftədən sonra ləziz turşunuz olacaq, üstəlik ən azı 3 kilo olacaq bu turşuya cəmi 3-4 manat xərciniz çıxacaq. Halbuki eyni məbləğə mağazadan bir ovuc turşu ala bilərsiniz.

Hələ hazır şorbaları demirəm... Bəzən iş çox olarsa, səhhətinizdə problem olarsa hazır şorba sizin üçün göydəndüşmə fürsət olacaq. Amma bu şorbaların tərkibindəki konservantlar ondan asılı qalmağa səbəb olur, nəticədə siz ev üsulu şorbanı sevmir, yerinə hər fürsətdə hazır şorba alırsınız. Şorbalara atılan toyuq bulyonları... Təhlükəsi barədə məlumatlısınızmı?

Dondurulmuş, dilimlənmiş kartof alanlar kütləvidir. O kartofların kanserogen olduğunu bilmirlər? Əlbəttə, bilmək istəmirlər. Çünki kartof soymaq, doğramaq onlar üçün işgəncədir, lakin onkoloji xəstəliklər zamanı çəkəcəkləri işgəncə heç bir ağrı ilə müqayisə edilməyəcək. Uşaqlı-böyüklü hamı kola xəstəliyinə tutulub. Mövsümündə qəpik-quruş olan meyvələrdən kompot ehtiyatınızı görsəniz bütün qış boyu sağlam, zərərsiz içkiniz olacaq.

Qatığı mağazadan alanlar var hələ. Axı indi az qala btün həyətlərə kəndlərdən məhsul gətirən adamlar var, mağazadan 500 qramını 2 manata aldığınız qatığın 3 litrini 3 manata satır kənddən gələnlər. Həm sərfəli, həm də sağlam. Kimyəvi məhsullardan hazırlanmış, əhəngə bənzəyən mağaza qatığı yerinə kənd qoxuyan ekoloji təmiz qatıq almaq olmazmı?

Analar südəmər körpəsinə faydası olsun deyə kəsmik alırs mağazadan. Süd tozundan, kimyəvi üsullarla hazırlanan o kəsmikdən övladınız fayda yox, zərər görür. Ekoloji təmiz südə 1 qaşıq limon suyu qatıb özünüz də hazırlaya bilərsiniz ev üsuslu kəsmiyi - əziyyətsiz, ekonomik.

2 yumurtanı, bir parça yağı, 1 stəkan süd və 1 stəkan unla yoğurduğunuz xəmirlə hazırladığınız kökələrin alternativi hansı mağazada daha ekonomik və daha sağlam ola bilər ki? Övladınızın çantasına qoyacağınız ev üsulu şirniyyat məktəb bufetində vaxtı keçmiş, tarixi yenilənmiş köhnə peçenyelərdən daha dadlı deyilmi? Aylarla eyni yağda qızardılan peraşkiləri, qutabları ev üsulu etmək olmazmı? Ailəmizin sağlamlığı təhlükə altındadır, bir qədər zəhmət çəkmək lazımdır.

***Lalə Mehralı***

SƏS
28 oktyabr
2023-cü il

# DİQQƏT: Dörd günlük iş rejiminə keçilir?

## EKSPERT AYDINLIQ GƏTİRDİ

"Əslində Azərbaycanda qadınların daha çox çalışdığı sahələrdə şənbə və bazar günü iş günü deyil. Bizdə əsasən qadınlar mədəniyyət və təhsil sahəsində çalışırlar. Kənd təsərrüfatında da xanımların sayı çoxdur, amma orada hər gün işləmək daha məqsədəuyğundur". Bu sözləri SİA-ya açıqlamasında yazıçı-kulturoloq, analitik-ekspert Aydın Xan Əbilov deyib. Aydın Xan Əbilov sözlərinə belə davam edib: "Dünyada nəinki şənbə bazar, hətta cümə gününün də qeyri-iş günü kimi olması üzrə müəyyən işlər aparılır. Yəni, dünyada dörd günlük iş rejiminə keçidə hazırlıq görülür. Qadınlar ailənin aparıcı qüvvəsi olsa da, son zamanlar onların bəzilərinin canı ailəyə o qədər də yanmır: "Əvvəllər ana-bacılarımız bizim əsas ailə dayağımız sayılırdı. İndi isə restoranlarda qadınların çoxu kişilərlə nərd atmağa hazırlaşır. Ailə, uşaq və ocağa sevgi get-gedə azalmaqdadır.



Onsuz da ailəsinə canı yanan qadın istirahət etsə-etməsə də öz işini görür. Mənim yaşlı anam 8 uşaqla 3 yerdə gecə-gündüz çalışırdı. O çalışdığı üçün uğurlar əldə etdi və bizi də zəhmətə alışdırdı. İndiki qadınların çoxu isə bütün günü telefonla məşğul olub hər şeyi kişilərdən gözləyir. Bu səbəbdən də ailədə problemlər yaranır, ailələr dağılır. İnsanın başına nə gəlirsə bekar gəzməkdən gəlir. Kişi və qadın fərqi olmadan kişilər həm səmərəli istirahət etməli, həm də çalışmalıdırlar. İnsan dünyaya ancaq istirahət edib zövq almaq üçün gəlməyib ki. Biz mənalı ömrümüzlə gələcək nəsillərə mesaj ötürməyi bacarmalıyıq".

*Ayşən Vəli*

# Ronaldo: "Qızıl top"u Messi qazanmalıdır



Braziliya millisinin sabiq hücumçusu Ronaldo ilin ən yaxşı futbolçusuna verilən "Qızıl top"u Lionel Messinin qazanmalı olduğunu deyib. QOL.az "Marca"ya istinadən xəbər verir ki, o, argentinalı hücumçunun bu mükafata layiq olduğunu söyləyib: "Qızıl top" şübhəsiz ki, Lionel Messiyə verilməlidir. Başqa yol yoxdur. Onun 2022-ci il dünya çempionatında etdikləri xüsusi idi. Bu mənə Dieqo Maradona və Pelenin dünya çempionatındakı çıxışlarını xatırlatdı".

Qeyd edək ki, "Qızıl top"un təqdimetmə mərasimi oktyabrın 30-da olacaq. Messi daha əvvəl 2009, 2010, 2011, 2012, 2015, 2019 ve 2021 illərdə "Qızıl top"un sahibi olub. Mükafatın son qalibi bu yay "Real"dan ayrılaraq "Əl-İttihad"a keçən Kərim Benzemadır.

# "Sosial mediada insanlar yalnız həyatlarının yaxşı tərəfini göstərməyə çalışır"

## PSİXOLOQ MÜNASİBƏT BİLDİRDİ



"Sosial mediada insanlar yalnız həyatlarının yaxşı tərəfini göstərməyə çalışır. Bəzən isə göstərilənlər sadəcə uydurmadan ibarət olur. Anlamaq lazımdır ki, bütün bunlar pul üçün edilir. Çünki öz gözəl ailə həyatını təbliğ edən insanlar bir zaman sonra "blogerlik" ilə məşğul olub, bundan pul qazanırlar". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova deyib.

Psixoloq bildirib ki, sosial mediada yanlış informasiya axını olur: "Müxtəlif təlimlər keçən şəxslər adətən öz bilik və savadlarını deyil də, həyat tərzlərini danışırlar. Hətta bir qrup şəxslər deyə bilmədiklərini sosial media vasitəsilə deyib, kimlərəsə çatdırmağa çalışır. Bunu isə bəzi gənclər örnək götürürlər. Lakin hər kəs başa düşməlidir ki, sosial media istifadəçisi olmaq bir məsuliyyətdir və deyilən hər bir söz istənilən bir insanın həyatına təsir göstərib, addım atmasına təkan olur. Təbii ki, bu mənada da sosial medianın hazırda boşanmalardakı rolu böyükdür. Çünki şəxs özü başa düşməsə belə, izlədikləri onun düşüncə və fikirlərində bu və ya digər formada təsir buraxır".

*Səbinə Hüseynli*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## ŞƏRH EDİLDİ

# "Universitet və nazirliklər bölgələrə köçürülərsə,..."

"Zaman-zaman gündəmə gələn universitetlərin, nazirlik və digər dövlət qurumlarının ölkəmizin digər bölgələrinə və ya paytaxt ətrafı ərazilərə köçürülməsi ictimaiyyət arasında da geniş müzakirə olunan məsələlərdən biridir. Düşünürəm ki, bu tip məsələlər barədə qərar vermək üçün müvafiq hesablamalar aparılmalı, iqtisadi və siyasi cəhətdən əsaslandırılmalıdır". Bu sözləri SİA-ya açıqlamasında deputat Ülviyyə Həmzəyeva deyib.

Deputat sözlərinə belə davam edib: "Dünya tarixinə baxsaq müasir dövrümüzə qədər bir çox halda artan populyasiya fonunda dövlət strukturlarının, təhsil müəssisələrinin və hətta bütün paytaxtın digər şəhərlərə köçürülməsi nümunələrini görə bilərik. Lakin bu dəyişim, o qədər də sadə və asan başa gəlməyən, böyük maliyyə resursları tələb edən və ən əsası düzgün strateji plana əsaslanmalı olan, zaman tələb edən bir prosesdir.

Belə bir qərar alınarsa fikrimcə, buna kompleks şəkildə yanaşılmalıdır. Məsələn iqtisadiyyatın hər hansı sahəsi üzrə inkişaf etmiş bir bölgəmizə müvafiq sahəyə cavabdeh dövlət strukturu, bu sahədə ixtisaslı kadr yetişdirən peşə və ali təhsil ocağı köçürülə bilər ki, bu da gələcəkdə elmi tədqiqat işlərinin effektiv aparılmasına və innovasiyaların tətbiqinə şərait yaratmış olar. Bu isə uzun perspektivdə həmin bölgənin dayanıqlı inkişafına öz töhfəsini verə bilər. Həmin ali təhsil ocağı isə öz sahəsində dünya universitetləri sırasında yerini tutar. Buna kiçik misal, Kanadanın Kənd Təsərüfatı Nazirliyi demək olar ki bütün əsas idarələrini Ontario vilayətinin Guelph şəhərinə köçürdü. Nəticə olaraq o zaman Guelph Kənd Təsərrüfatı Koleci olan daha sonra inkişaf edərək Guelph Universitetinə çevrilən və bu sahədə dünyanın ən prestijli təhsil müəssisələri arasında yer alan bir təhsil ocağı yarandı.



İstər şəhərlərin köçürülməsinin, istərsə də dövlət və təhsil müəssisələrinin köçürülməsinin öz üstünlükləri və dezavantajları var. İnfrastruktur, yeni texnologiyaların tətbiqi, işçi qüvvəsi, insanların yerdəyişməyə adaptasiyası və.s. məsələlər sahənin mütəxəssisləri tərəfindən araşdırılıb elmi əsaslarla hökumətə təqdim ediləcəkdir. Lakin ümumi götürsək dövlət qurumlarının bölgələrdə yerləşməsi o bölgənin inkişafı üçün böyük stimul ola bilər və insanlar üçün daha əlçatan olmaqla dövlət xalq münasibətlərini daha da sıxlaşdırmağa imkan verər. Təhsil müəssisələrinin yüksək sıxlıqlı paytaxtdan kənara köçürülməsi isə ilk növbədə tələbələrə daha rahat və maraqlı tələbəlik dövrü yaşamaq imkanı verər. Çünki daha geniş ərazidə yaradılacaq universitet şəhərciyi tələbələrə öz ekosistemlərini qurmağa imkan verəcək. Və təbii ki, bu kimi qərarlar paytaxt Bakımızın tıxac, ekoloji çirklənmə və.s. problemlərinin biraz da olsa azalmasına gətirib çıxarar".

*Ayşən Vəli*


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000